412:1.QXD 27.02.2018 21:49 Page 1


# KÜRD DÎPLOMAT

xalqı mübariz və qəhrəman xalqdır
Heydər Əliyev

№ 07 (412) 26 Fevral, Şûbat - 4 Mart, Adar sal 2018
Ji meha şûbatê sala 2003-a tê weşandin

*Həftəlik İctimai-siyasi qəzet*
Rojnama heftename civakî û sîyasî

Qiymәti: Hêjaye: 40 qəpik


Bilirsən, nə etmiş kürdlər bir zaman?
Qurtarmış İslamı çox ağır dardan!
Qədim Avropanın xaçpərəstləri,
Yüz illər sındırmış göy məsçidləri.
Müsəlman keçmişin öyrənsə əgər,
Kürdün dərgahına daim baş əyər.

Səbahəddin Eloğlu

# 26 Fevral Xocalı soyqırımı günüdür!



Səh. 2

## Prezident İlham Əliyev Xocalı soyqırımı qurbanlarının xatirəsini anım mərasimində iştirak edib





Səh. 6-7

## Xocalı soyqırımı Kürdüstanın Ərbil şəhərində keçirilən konfranslarda qaldırılıb

## Mir Möhsün Nəvvab kimdir?

Səh. 12

## 1947-ci il. Mustafa Bərzani və onun kürd peşmərgələri Azərbaycanda

Səh. 12

## Kürd yoxsa Erməni Soyqırımı; Fərziyyələr və Həqiqətlər

Səh. 5

## Xudu Məmmədovun axtardığı, ermənilərə qan udduran laçınlı Çal Aslan

Səh. 12



Səh. 3

## DAŞKƏSƏNDƏ XOCALI SOYQIRIMI QURBANLARININ ƏZİZ XATİRƏSİ DƏRİN HÜZNLƏ YAD EDİLDİ



Səh. 4

## Sed hezaran kes, bona komkûjîya Xocalîyê meşîyan



Səh. 8-9

## ERMƏNİLƏRİN "DƏNİZDƏN DƏNİZƏ" ERMƏNİSTANXÜLYASINI GÖZÜNDƏ QOYAN İSMAYIL AĞA SIMKO

412:1.QXD 27.02.2018 21:49 Page 2



# Prezident İlham Əliyev Xocalı soyqırımı qurbanlarının xatirəsini anım mərasimində iştirak edib

1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni təcavüzkarları Azərbaycanın Xocalı şəhərində bəşəriyyət tarixində ən qanlı faciələrlə bir sırada duran soyqırımı törətdilər. Bu faciədən 26 il keçir. Həmin kütləvi qırğın nəticəsində 106-sı qadın, 63-ü uşaq, 70-i qoca olmaqla 613 nəfər amansızlıqla qətlə yetirildi, 487 nəfər şikəst oldu, 1275 dinc sakin girov götürüldü, onlardan 150 nəfərin taleyi hələ də məlum deyil. Bu soyqırımı aktı nəticəsində 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini itirdi. Hər il dünya azərbaycanlıları və ədaləti uca tutanlar Xocalı soyqırımı qurbanlarının xatirəsini yad edirlər.

Azərbaycan paytaxtının minlərlə sakini Xocalı soyqırımının 26-cı ildönümü ilə əlaqədar anım mərasimində iştirak etmək üçün fevralın 26-da səhər tezdən Xətai rayonunda faciə qurbanlarının xatirəsinə ucaldılmış abidənin önünə toplaşıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva anım mərasimində iştirak etdilər.

Abidənin yanında fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyev abidənin önünə əklil qoydu, soyqırımı qurbanlarının xatirəsinə ehtiramını bildirdi.

Birinci vitse-prezident Mehriban Əliyeva, Baş nazir Artur Rasi-zadə, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev abidənin önünə gül dəstələri qoydular.

Mərasimdə dövlət və hökumət nümayəndələri, Milli Məclisin deputatları, nazirlər, komitə və şirkət rəhbərləri, dini konfessiyaların başçıları, habelə qırğından xilas ola bilmiş Xocalı sakinləri iştirak edirdilər.

Anım mərasiminin iştirakçıları




abidənin önünə tər güllər düzdülər.

Azərbaycanın tarixinə qanlı hərflərlə yazılmış həmin gecə erməni silahlı dəstələri hələ SSRİ dövründə Xankəndi şəhərində yerləşən, şəxsi heyətinin xeyli hissəsi ermənilərdən ibarət olan 366-cı motoatıcı alayın zirehli texnikasının və hərbçilərinin köməyi ilə qədim Xocalı şəhərini yerlə-yeksan etdilər.

Xocalı faciəsi 200 ilə qədər bir müddətdə erməni millətçilərinin və onların havadarlarının Azərbaycan xalqına qarşı apardıqları etnik təmizləmə və soyqırımı siyasətinin davamıdır. Soyqırımı zamanı 56 nəfər xüsusi qəddarlıqla öldürülüb, 3 nəfər diri-diri yandırılıb, başlarının dərisi soyulub, bədən əzaları və başları kəsilib, gözləri çıxarılıb, hamilə qadınların qarnı süngü ilə yarılıb. Bu əməllərin qabaqcadan düşünülmüş qaydada, milli əlamətinə görə insanların tamamilə və ya qismən məhv edilməsi niyyəti ilə törədilməsi beynəlxalq hüquqa əsasən Xocalı faciəsinin məhz soyqırımı olduğunu təsdiq edir.

İnsanlığa qarşı törədilmiş bu cinayət aktı beynəlxalq aləm tərəfindən öz hüquqi qiymətini almalıdır. Azərbaycan dövləti erməni millətçilərinin xalqımıza qarşı törətdiyi cinayətlər, o cümlədən Xocalı faciəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, onun soyqırımı kimi tanıdılması üçün məqsədyönlü və ardıcıl iş aparır. Prezident İlham Əliyev Xocalı faciəsini təcavüzkar erməni millətçilərinin yüzilliklər boyu Azərbaycan xalqına qarşı apardığı soyqırımı və etnik təmizləmə siyasətinin qanlı səhifəsi kimi qiymətləndirib.

Erməni təcavüzkarlarının törətdikləri bu vəhşilik yaddaşlardan heç zaman silinməyəcək. Bu, təkcə Azərbaycan xalqına qarşı soyqırımı deyildi, bəşəriyyətə, insanlığa qarşı törədilmiş qanlı cinayət idi. Buna baxmayaraq, o zamankı Azərbaycan hakimiyyəti bu dəhşətli hadisəyə siyasi qiymət verilməsi, qanlı qırğın barədə obyektiv məlumatların dünya ictimaiyyətinə çatdırılması üçün heç bir əsaslı iş görmədi. Yalnız ümummilli lider Heydər Əliyev xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə gəldikdən sonra həmin qanlı faciəyə hüquqi-siyasi qiymət verildi. 1994-cü ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan parlamenti 26 fevralı Xocalı soyqırımı günü kimi elan etdi.

Hər il bu müdhiş faciənin ildönümü respublikamızda və dünyanın müxtəlif ölkələrində ürəkağrısı ilə qeyd olunur. Faciə ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva böyük xidmətlər göstərib. Fondun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə "Xocalıya ədalət!" beynəlxalq kampaniyası çərçivəsində də hər il silsilə tədbirlər reallaşdırılır. Həyata keçirilən ardıcıl və kompleks tədbirlərin məntiqi nəticəsi olaraq yalan və saxtakarlıq üzərində qurulmuş erməni təbliğat maşınının iç üzü ifşa olunur. Artıq Xocalı faciəsinin soyqırımı olması faktı dünyanın bir çox ölkələrinin və beynəlxalq təşkilatların qərarlarında, qətnamələrində əksini tapır. Kanada, Meksika, Kolumbiya, Peru, Pakistan, Bosniya və Herseqovina, Rumıniya, Çexiya, İordaniya, Honduras və digər ölkələrin parlamentləri, eləcə də ABŞ-ın bir sıra ştatlarının qanunverici orqanları və İslam Əməkdaşlıq Təşkilatı Xocalı soyqırımını tanıyıb. Beynəlxalq hüquqa görə, soyqırımı sülh və bəşəriyyət əleyhinə yönələn əməldir və ən ağır beynəlxalq cinayət sayılır. BMT Baş Məclisinin 1948-ci il 9 dekabr tarixli 260 saylı qətnaməsi ilə qəbul edilən və 1961-ci ildən qüvvəyə minən Konvensiyada soyqırımı cinayətinin hüquqi əsası təsvir edilib. Ermənistanın Azərbaycana qarşı təcavüzü zamanı həmin Konvensiyada təsbit edilən soyqırımı cinayətinə aid bütün əməllər tətbiq olunub.

Xalqımız qəti əmindir ki, ədalət mütləq yerini tutacaq, Xocalı faciəsi soyqırımı kimi tanınacaq, eləcə də hazırda Cənubi Qafqazın iqtisadi güc mərkəzinə çevrilən, beynəlxalq aləmdə mövqeyini daha da möhkəmləndirən, hərbi qüdrəti ilə seçilən Azərbaycan düşmən tapdağı altında olan torpaqlarını azad edəcək, şəhidlərimizin qanı yerdə qalmayacaq, günahkarlar isə layiqli cəzalarını alacaqlar.

# Prezident İlham Əliyev "Rossiya-24" telekanalının müxbirinə müsahibə verib



Prezident İlham Əliyev "Rossiya-24" telekanalının müxbirinə müsahibə verib.

Müsahibə telekanalın Xocalı soyqırımı ilə əlaqədar efirə gedən reportajında yer alıb. Müsahibəni təqdim edirik.

**Müxbir:** İlham Heydər oğlu, ağır səhərdir. Hansı düşüncələrlə buraya gəlmisiniz, hansı fikirlərlə yuxudan oyanmısınız? Deməliyəm ki, Rusiyada rusiyalılar bu faciəni xatırlayırlar və bu günü ehtiramla yad edirlər. Hansı düşüncələrlə bu gün buraya gəlmisiniz?

**Prezident İlham Əliyev:** İlk növbədə, belə bir gündə bizimlə birlikdə olmaq və Azərbaycan xalqının faciəsinə münasibət bildirmək üçün Bakıya gəldiyinizə görə sizin telekanala təşəkkür etmək istəyirəm. Mən bunu çox yüksək qiymətləndirirəm və buna görə sizə minnətdaram. Bu gün Azərbaycan xalqının tarixində ən qanlı səhifələrdən biridir, azərbaycanlıların soyqırımı günüdür. Bu günü Azərbaycan xalqı həmişə yadda saxlayacaq və heç vaxt unutmayacaq. Ermənistan 26 il əvvəl azərbaycanlılara qarşı soyqırımı törədib. Bunun nəticəsində 613 dinc sakin öldürülüb, onlardan 106-sı qadın, 63-ü uşaqdır. 1200-dən çox dinc sakin əsir düşüb və işgəncələrə məruz qalıb, 500-ə qədər insan əlil olub, 150 dinc sakin barədə isə heç bir məlumat yoxdur. Onlar itkin düşmüş sayılırlar, amma onların öldürüldüyü ehtimalı daha çoxdur. Həmin müdhiş gün, həmin qanlı faciə barədə çox sayda video, foto materiallar, möcüzə nəticəsində sağ qalmış insanların şahidliyi var. Bu, erməni faşizminin təzahürü idi. Bu, vəhşiliyin təzahürü idi.

Bu gün bütün dünyada "Xocalıya ədalət!" kampaniyası genişlənir. Bu günlər dünyanın bir çox ölkələrində matəm tədbirləri keçirilir. Bu günlər Azərbaycanın diaspor təşkilatları, ictimaiyyət "dəyirmi masa"lar, təqdimatlar, sərgilər keçirir. Bütün foto və video sənədlər bu böyük faciə haqqında şahidlik edir. Biz bunu xatırlayırıq. Bunu heç vaxt unutmayacağıq. Bu faciənin heç vaxt təkrarlanmaması üçün Azərbaycan daha güclü olmalıdır. Siz mənim bu matəm gününü hansı hisslərlə qarşıladığımı soruşdunuz - hər bir azərbaycanlının keçirdiyi hisslərlə, günahsız öldürülənlərə görə dərd, kədər, qurbanlara görə ağrı hissi, eyni zamanda, ölkəmizi möhkəmləndirmək qətiyyəti ilə. Azərbaycan xalqının gələcəkdə heç vaxt belə faciə ilə üzləşməməsi üçün ölkəmizin iqtisadi, hərbi potensialını möhkəmləndirməliyik.

**Müxbir:** İlham Heydər oğlu, bu müsahibəyə, bizimlə vaxt tapıb görüşdüyünüzə görə təşəkkür edirik.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Müxbir:** Bu, dövlət üçün kədərlidir.

**Prezident İlham Əliyev:** Bu gün bizimlə burada olduğunuza görə bir daha sizə təşəkkür etmək istəyirəm. Çox sağ olun.

**Müxbir:** İştirak etməkdən məmnun olduq.

412:1.QXD 27.02.2018 21:49 Page 3



# DAŞKƏSƏNDƏ XOCALI SOYQIRIMI QURBANLARININ ƏZİZ XATİRƏSİ DƏRİN HÜZNLƏ YAD EDİLDİ

Daşkəsəndə Xocalı faciəsinin iyirimi altıncı ildönümü ilə bağlı ümumrayon anım tədbiri 26 fevral tarixində rayon ictimaiyyəti fəallarının iştirakı ilə İcra Hakimiyyətinin iclas zalında keçirildi.

Tədbir Xocalı şəhidlərinin, o cümlədən torpaqlarımızın ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başladı.

Daha sonra Daşkəsən Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev anım tədbirində çıxış etdi. O, çıxışında dedi:

– 26 il əvvəl – 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni təcavüzkarları Azərbaycanın Xocalı şəhərində bəşəriyyət tarixində ən qanlı faciələrlə bir sırada duran soyqırım törədiblər. Xocalı faciəsi XX əsrin ən dəhşətli soyqırım hadisəsi və beynəlxalq cinayət kimi təsdiq olunmuşdur. Bu soyqırım zamanı Azərbaycan xalqı yüzlərlə şəhid qurban vermişdir.

Xocalı soyqırımı Dağlıq Qarabağ münaqişəsi zamanı baş vermiş ən dəhşətli hadisələrdən biridir.

1992-ci ilin fevral ayının 25-dən 26-na keçən gecə erməni silahlı birləşmələri keçmiş SSRİ-yə məxsus olan və o dövrdə Dağlıq Qarabağın Xankəndi şəhərində yerləşən 366-cı alayın bilavasitə köməkliyi ilə yeddi min nəfərə qədər azərbaycanlı əhalinin yaşadığı Xocalı şəhərinə 5 istiqamətdən hücum etdilər. Əhali tibbi xidmət və ərzaq sarıdan ciddi əziyyət çəkirdi. Şəhərdə çox sayda xəstələr, yaralılar, qocalar, qadınlar və uşaqlar var idi.

Həmin gecə dinc mülki əhali, uşaqlar, qadınlar, qocalar, xəstələr ağlasığmaz vəhşiliklə məhv edildi. Yalnız təsadüflər nəticəsində bir qrup Xocalı sakini tarixə şahidlik etmək üçün sağ qala bildi.

Xocalı soyqırımı nəticəsində 613 nəfər qətl edildi, 1000-dən artıq dinc sakin müxtəlif dərəcəli güllə yarası alaraq şikəst oldu, 1275 nəfər girov götürüldü. Onlardan 150 nəfərinin taleyi bu gün də məlum deyil. Qətlə yetirilənlərin 106 nəfəri qadın, 63 nəfəri azyaşlı uşaq, 70 nəfəri ahıl qoca, şikəst olanların 76 nəfəri yetkinlik yaşına çatmamış oğlan və qızlar idi.

Son iki əsrdə erməni millətçi və ekstremist dairələri xarici havadarlarının köməyi ilə tarixi Azərbaycan torpaqları hesabına xəyali "Böyük Ermənistan" ideyasını reallaşdırmaq məqsədilə Azərbaycana qarşı ardıcıl işğalçılıq siyasəti həyata keçirmiş, bu məkrli məqsədə çatmaq üçün zaman-zaman amansız terror aksiyaları və kütləvi qırğınlar, deportasiya və soyqırım kimi cinayətlər törətmişlər.

Çoxsaylı tarixi sənədlər şahidlik edir ki, 1905-1907, 1918-1920, 1948-1953-cü illərdə Qafqazda öz tarixi ərazilərində etnik təmizləmə və soyqırım siyasətinə məruz qalan yüz minlərlə azərbaycanlı kütləvi surətdə qətlə yetirilmiş və öz dədə-baba torpaqlarından didərgin salınmışlar.

1988-ci ildən etibarən Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiaları yenidən baş qaldırmışdır. 1988-1989-cu illərdə 250 mindən artıq azərbaycanlı son nəfərinə kimi Ermənistandakı tarixi torpaqlarından deportasiya edilmiş, bu qanlı aksiya zamanı yüzlərlə günahsız insan – qocalar, qadınlar, uşaqlar vəhşicəsinə qətlə yetirilmişdir.

İyirmi ildən çoxdur ki, Azərbaycan torpaqlarının 20 faizi, o cümlədən, Dağlıq Qarabağ inzibati-ərazi bölgüsünə daxil olmayan və 90-cı illərin əvvəllərinədək bütünlüklə azərbaycanlıların yaşamış olduqları 7 rayon hələ də Ermənistan silahlı qüvvələrinin işğalı altındadır. Münaqişə nəticəsində 1 milyondan artıq azərbaycanlı öz əzəli yurdlarından vəhşicəsinə qovulmuş, on minlərlə adam qətlə yetirilmiş və şikəst edilmişdir. İşğal zonasında yüzlərlə şəhər və kənd, minlərlə ictimai-mədəni tikili, təhsil və səhiyyə müəssisələri, tarixi-mədəniyyət abidələri, muzeylər, məscidlər, müqəddəs sitayiş yerləri, qəbiristanlıqlar yerlə-yeksan edilərək, misli görünməmiş vandalizm aktına məruz qalmışdır.

Xocalı soyqırımına ilk dəfə siyasi-hüquqi qiymətli Ulu Öndərimiz Heydər Əliyev verib. Belə ki, 1994-cü ildə Azərbaycan xalqının ümummilli liderinin təşəbbüsü ilə Milli Məclis Xocalı soyqırımı ilə bağlı qərar qəbul edib. Həmin qərarla fevral ayının 26-sı Xocalı soyqırımı və Milli Matəm günü kimi qəbul olundu, bu barədə bütün beynəlxalq təşkilatlara bildirildi, Azərbaycan xalqının haqq səsi çatdırıldı.

Ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı çox hörmətli cənab İlham Əliyevin apardığı uğurlu xarici siyasət sayəsində hazırda bu soyqımı törədənlərin ifşa olunması və beynəlxalq ictimaiyyətin məlumatlandırılması Azərbaycanın xarici siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyənləşdirilmişdir. Xocalı həqiqətlərinin dünyaya çatdırılması, beynəlxalq aləmdə yayılması, eləcə də bu soyqırıma obyektiv qiymət verilməsi istiqamətində davamlı olaraq iş aparılır. Bu baxımdan Heydər Əliyev Fondu, xüsusilə onun prezidenti, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti çox hörmətli Mehriban xanım Əliyevanın gördüyü işlər olduqca təqdirəlayiqdir. Belə ki, fond bəşəriyyətin ən böyük faciələrindən olan Xocalı soyqırımı haqqında faktların dünyaya çatdırılması istiqamətində çox sistemli və ardıcıl fəaliyyət göstərir.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə ayrı-ayrı ölkələrdə təşkil edilən və faciənin həqiqətlərinin yayılmasına yönəlmiş "Xocalıya ədalət!" beynəlxalq kampaniyası da Xocalı soyqırımının beynəlxalq aləmdə tanıdılması istiqamətində işləri daha da sürətləndirib, səmərəsini artırıb, xalqımızın başına gətirilən bu faciəni və Ermənistanın işğalçı dövlət olduğunu dünya ictimaiyyətinə çatdırılmasında çox mühüm rol oynayıb. Belə ki, hal-hazırda ondan çox xarici ölkə və ABŞ-ın 20-dən çox ştatı Xocalı soyqırımını tam və ya parlament səviyyəsində qətliyam kimi tanıyıb.

Bildiyiniz kimi artıq uzun müddətdir ki, Xocalı həqiqətlərinin dünyada təbliği işində Azərbaycan və Türkiyə diaspor təşkilatları birgə fəaliyyət göstərirlər. Fevralın 20-də qardaş Türkiyə Respublikasının Prezidenti cənab Rəcəb Tayyib Ərdoğan Ədalət və İnkişaf Partiyasının (AKP) parlament qrupunun toplantısındakı çıxışı zamanı Azərbaycanın bu haqq işinə böyük dəstək verib. Türkiyə Prezidenti öz çıxışında bütün dünyaya səslənərək deyib: "Xocalı faciəsi zamanı şəhid olan azərbaycanlı qardaşlarımızı rəhmətlə anırıq. Dünyada vəhşi qətliam arayan varsa, bu, Xocalıdır. İnsanlıq tarixinin ən böyük zülmlərindən biri 26 il əvvəl Xocalıda yaşanıb. Dünyada hər fürsətdə demokratiyadan, insan hüquqlarından bəhs edib Xocalı qatillərinə hökm kəsən və ya bununla bağlı çıxışlar edən bir ölkə gördünüzmü? Görə bilməzsiniz. Çünki türkə, müsəlmana gələndə onların gözləri, qulaqları və vicdanları qapanır. Onlar görməz, duymaz, hiss etməzlər. Amma hər kəs unutsa da, biz unutmayacaq və unutdurmayacağıq. Xocalı qətliamını da, qardaşlarımıza qarşı işlənən bütün insanlıq günahlarını da hər zaman xatırlayacaq və xatırladacağıq".

Xocalı faciəsi qan yaddaşıdır və bu faciəni Azərbaycan xalqı heç vaxt unutmayacaqdır.



Bir vacib məsələ ilə bağlı bildirmək istəyirəm ki, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2017-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında dövlətimizin Başçısı 2018-ci ili "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan etmişdir. Yüz il bundan əvvəl müsəlman aləmində ilk dəfə olaraq demokratik cümhuriyyət yaradıldığını diqqətə çatdıran ölkə Rəhbərimiz çıxışında deyib ki, bu respublikanı Azərbaycan xalqı yaratdığına görə hər birimiz fəxr edirik. Bununla bir daha bütün dünyaya nümayiş olunmuşdur ki, Azərbaycan xalqı böyük xalqdır, istedadlı xalqdır, azad xalqdır.

Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin 2018-ci ili "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan etməsi, həm də Azərbaycan cəmiyyətinin müstəqil dövlətçiliyinə sahib çıxmaq iradəsidir.

Azərbaycan xalqının müqəddəratında taleyüklü əhəmiyyətə malik hadisələrin də hər birinin, Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ərəfəsində azərbaycanlılara qarşı törədilmiş kütləvi qırğınların da 100 ili tamam olur. Azərbaycan xalqının milli müqəddəratı ilə birbaşa bağlı olan bu faciənin 100 illiyinin qeyd edilməsi, həm də torpaqlarımızı bu gün də işğal altında saxlayan Ermənistanın işğalçılıq tarixinin mahiyyətini geniş ictimaiyyətə çatdırmaq imkanıdır.

Milyonlarla həmvətənlilərimiz kimi biz daşkəsənlilər də Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllini ulu öndər Heydər Əliyev siyasətinin müdrikliyində və həmin siyasi kursu layiqincə davam etdirən ölkə başçısı çox hörmətli cənab İlham Əliyevin məqsədyönlü fəaliyyətində görürük.

Xalqımız, o cümlədən də biz daşkəsənlilər Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli, işğal olunmuş torpaqlarımızın azad edilərək ölkəmizin ərazi bütövlüyünün bərpası ümidi ilə yaşayır və bu günün uzaqda olmadığına inanırıq.

Birmənalı olaraq bir daha əminliklə bildiririk ki, Xocalı soyqırımının günahkarları, xüsusilə qətliyamın əsas iştirakçılarından biri olan Serj Sarkisyan öz layiqli cəzalarını alacaq və cinayət məsuliyyətinə cəlb olunacaqlar. Çünki bu dəhşətli cinayət cəzasız qala bilməz. Bu qanlı faciə təkcə Azərbaycan xalqına qarşı törədilmiş qətliyam deyil, o həm də bütün insanlığa, bəşəriyyətə qarşı törədilmiş bir cinayətdir.

Allah bütün şəhidlərimizə rəhmət eləsin, əziz ruhları şad olsun!

Daşkəsən Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyevin dərin məzmunlu nitqindən sonra tədbirdə iştirak edən digər natiqlər də Azərbaycanın azadlığı, müstəqilliyi və ərazi bütövlüyü uğrunda döyüşlərdə şəhid olmuş və bu amansız soyqırımın qurbanına çevrilmiş dinc, günahsız soydaşlarımızın keçdiyi məşəqqətli həyat yolundan söhbət açıb faciənin ağır nəticələri, sağalmaz yaraları, cinayətkar və işğalçıların öz layiqli cəzalarını alması istiqamətində hər birimizin üzərinə düşən məsuliyyət və vəzifələr haqqında çıxışlar etdilər.

Qeyd edək ki, Xocalı soyqırımının 26-cı ildönümünün Daşkəsən rayonunda qeyd edilməsi münasibətilə Daşkəsən Rayon İcra Hakimiyyəti Başçısının müvafiq sərəncamı əsasında hazırlanmış tədbirlər planına uyğun olaraq rayonun bütün ümumtəhsil məktəblərində, idarə, müəssisə və təşkilatlarda, inzibati ərazi dairəsi üzrə nümayəndəliklərdə silsilə anım tədbirləri keçirilmiş, rayon sakinləri təşkil olunan anım tədbirlərində erməni vəhşiliyinə, ötən əsrin ən amansız soyqırımına öz kəskin etirazlarını bildirmişlər.

412:1.QXD 27.02.2018 21:49 Page 4



# Sed hezaran kes, bona komkûjîya Xocalîyê meşîyan












Ev roj, 26-ê şûbatê sed hezaravan kes, bi serokê komara Azerbaycanê birêz Îlham Elîyêvva, ji meydanê ``Azadî``yê heya peykela şehîdên Xocalîyê meşîyan û gul û sosinava şehîda bîr anîn. Serokê komara Azerbaycanê birêz Îlham Elîyêv der bare komkûjîya-qetlîyama Xocalîyê axifî û got: ``Emê komkujîya-qetlîyama Xocalîyê çawa ``Komkûjîya Gel`` li cîhanê bidine nasandin...

## *Trajêdîya-şepûka û komkûjîya gellên bajarê Xocalîyê...*

Li qurna (sedsala) XX-a, XOCALÎ wek Helepçe, Dêrsim, Mahabat komkûjîyek ji alîyên nijatparêzên ermenî bi harîkarîya eskerên sor, yê sovêtêye berê hat qetandin.

Di sala 1992-a, şeva ji 25-a derbasî 26-şê şûbatê li bajarê haşitî xwaz Xocalîyê şepûkek, komkûjîyek ji alîyên “mirovahî“-yê, ji alîyên ermenîyan hat kirin. Dijminên nijatparêz wê şevê bajarê Xocalîyê bi xwîna gel sor “xemiland“.

Li Qerebaxê şer dom dikir, Xocalî navçek li navbera Qerebaxê û Axdamê bû, hê şer ne gêhêştibu wur, ne dihate aqilê tu kesî ermenî wê wextekî şeva zivistanê êriş bike ser bajarê Xocalîyê û gellên am û tam qetlîyam bikin. Her der bi berfa sipî hatibu xemilandin.

Roja 25-ê şeva şûbatê, derbasî 26-a bunê bi harîkarîya korpusa tangên û topên rusaye 366-a eskeranva êrişî bajarê Xocalîyê kirin û jin-zarok, kal-pîr, keç-xortên dest vala hatin qetlîyam kirin. Yê dîl ketî hê jî tu agahî jê tunene, yê ku revîbûn daristanê bi serma şehîd ketibûn.

Hinek xwe gîhandibun gundan û silamet mabun. Lê miqabin wê şevê faşîstên ermenî 613 mrov qetl kiribûn, kîjanî ku ji wana 63 kes zarok, 106 kes jin, 70 kes kal û pîrbûn. 8 malbet bi temamî hatine tunekirin, 25 zarok dê û bavên xwe unda kirine, 130 zarok hinek bavên xwe, hinek jî daykên xwe unda kirine. 487 mirov kîjanîku ji wana 76 zarok giran brîndar bibûn. 1275 mrov dîl birine, 150 mirov undaye.

Hine kesên ji Xocalîyê saxin, agahî didin wekî, pirranîyê gellên Xocalîyê azerî û kurd bune û serkarê dewleta Azerbaycanêye wî çaxî, Ayaz Mutellîbov bi zane Xocalî bê parastin hîştine û bona wê jî bû sedemê qetlîyamê. Heya hatina Hêyder Elîyêve hertim zindî, tu kes pirsa Xocalîyê dernedixiste rojevê, wextê Hêyder Elîyeve hertim zindî hat ser kar, bajarê Xocalî wek bajarê şrhîda nav kir û buyerên Xocalîyê derxicte rojeva Azerbaycanê û cîhanê. We rojê, 26-ê şûbatê çawa roja komkûjîyê elam kir. Her sal gellên Azerbaycanê, 26-ê şûbatê wek roja komkûjîyê derbas dikin û dengên xwe digîhînine cîhanê, wekî gelên cîhanê bizanibin ermenî çi şepûk anîne sere gelên Azerbaycanê piranî sere gelên azerî û kurd. Daxwazîya me ewe wekî, rewşenbîrên me wek Çeto Omerî bên Azerbaycanê, agahî hildin, ji van buyaran agahdarbin û agahîyê bidine sazîyên gelên me wusa jî sazîyên cîhanê, wekî nijatparêzên ermenî li Ermenîstanê, Laçînê, Kelbecerê, Kubatliyê, Cebrailê çi şepûk anîne serê gelên Azerbaycanê û gelên kurd.

***Amadekar: Tahir Silêman***








412:1.QXD 27.02.2018 21:49 Page 5



**Xocalı soyqırımnın bünövrəsi erməni daşnaklar tərəfindən 1897-ci ildə Xanasorda 40000 kürd və türk xalqlarının qətli ilə başlayaraq, Qərbi Azərbaycanda, Qarabağda, Naxçıvanda, Bakı və ətraf rayonlarda və sonda 26 fevral Xocalı soyqırımına qədər gəlib çatmışdır**

# Kürd yoxsa Erməni Soyqırımı; Fərziyyələr və Həqiqətlər

Hərdən biz ata-babalarımızın nəsihətlərini unuduruq, özü də tez unuduruq. Babam Kürd Musa, ömrünün sonuna-yəni 115 yaşına qədər Qərbi Azərbaycanın Vedibasar əyalətində yaşamışdır. O, hər zaman ermənilərin müxənnət olduqlarından danışardı və bizə tövsiyəsi də o olardı ki, ermənilərə etibar etməyin. Çünki, onlar fürsət düşən kimi, öz pis əməllərini həyata keçirəcəklər.

Mən ona qədər erməni-müsəlman davası görmüşəm. "İtlə yoldaş olanın zopası əlində olmalıdır", deyə bizə nəsihət verərdi. Son günlərdə erməni soyqırımında əhəmiyyətli rol aldığı iddia edilən kürdlər və bu rol səbəbiylə kürdlər tərəfindən ermənilərdən istənilən üzrlər danışılmaqdadır. Görəsən, Xocalı, Xanasor, Sorkuli və bu kimi yüzlərlə şəhər və kəndlərdə aparılan soyqırımınlar üçün erməni daşnakları nə vaxt üzr istəyərək soyqırım iddialarından əl çəkəcəklər. 1915-ci ildə yaşanan acı hadisələrlə üzləşmək nə qədər lazımdırsa , kürdlərin də bütünlüklə olaraq bu qırğında iştirak almadıqlarını söyləmək və müdafiə etmək də bir o qədər əhəmiyyət ifadə etməkdədir. Bu mövzu ilə əlaqədar araşdırmaçı -yazar və dilçilik mütəxəssisi Mamostə Əziz Cəvonun keçdiyimiz aylarda rusca nəşr olunmuş məqaləsindən bəzi məqamları dərc etməyimizi məqsədəuyğun hesab etdik.

**Doğruları görmək lazımdır ... - Eziz Cəvo**

Modest Kolerovun "Yeni partlama nöqtələri: Kurdistan, Qarabağ və Rusiya" başlıqlı məqaləsi içində yaşadığımız dövrdəki dünya siyasətinin bir sıra aktual mövzularına öz prizmasından baxır. Məqalənin yazarının təqdim etdiyi, eyni müddət içərisində yaşanan bu problemlərin strateji və geosiyasi istiqamətlərinin analizlərini özünəməxsus şəkildə təhlil edir.

M. Kolerov deyir ki: " ... Ermənistanın geosiyasi zəifliyi və kürdlərin dövlətin səhnəsinə çıxmaları , obyektiv olaraq bir dəfə daha erməni siyasətində , zəmanət sistemləri arasında - əsgəri olaraq Kollektiv Təhlükəsizlik Razılaşması Təşkilatında , siyasi olaraq da ABŞ və NATO da - sağlam seçki edə bilmə problemini deyil, amma Dağlıq Qarabağın idarəsi məsələsində çox da əhəmiyyətli olmayan bir problemi ( demoqrafik ağırlığına görə ) önə çıxarır çünki, "tarix boyunca ermənilərlə kürdlər anlaşmamışlar və 1915 –ci ildə erəmənləri osmanlılarla birlikdə kürdlər də soyqrıma məruz qoyublar".

İlk olaraq, yalnız kompleks bir problem olan erməni - kürd əlaqələri və problemləri haqqında deyil , eyni zamanda Osmanlı İmperatorluğunda yaşamış digər millətlərin əlaqələri və problemləri haqqında da belə ayaqüstü bir şey söyləmək gərəksizdir. Bu mövzular xüsusi diqqət tələb edir. İkincisi M. Kolerovun ən sonunda dövlətləşmə yoluna girmiş Kürdlərin guya erməniləri soyqrıma məruz qoymaları fikri tamami ilə yanlış və absurddur.





Başda deyilməsi lazım olan; yunanlıların , kürdlərin , assurilər və Osmanlı İmperatorluğunda yaşayan türk olmayan digər millətlərin soyqrımlarından olduğu kimi erməni soyqrımının da bu dövlətin siyasətinin bir nəticəsi olduğudur. Soyqırım , bir dövlətin öz vətəndaşlarından bir seqmentə və ya başqa ölkədəki insanlara qarşı tətbiq məhv siyasətidir. Soyqırım termini , nəticələri nə qədər trajik olursa-olsun , dövlət statusunda olmayan millətlər və dini icmalar arasında baş verən qarşıdurmalar üçün istifadə edilə bilməz və onlar üçün etibarlı ola bilməz . Və Osmanlı İmperatorluğunda , kürdlər və ermənilər arasındakı qarşıdurmaların nəticəsi də tragik olmuşdur. Bunu inkar etmək mümkün deyil. Amma soyqırım tamamilə fərqli bir hadisədir . Məqsədi bir milləti və ya dini bir birliyi tamamilə məhv etmək istəyi olan bir dövlət siyasətidir.

Xainlər və günahkarlar öz xalqlarından deyildirlər! Kürdlər bu günə qədər davam etdirilən soyqırım siyasətinə qurban edilmişdir və xainlərin işlədikləri cinayətlər səbəbiylə bütün xalqın cinayət məsuliyyətinə cəlb heç bir dayağının ola bilməyəcəyi kimi ermənilərində bu iddialarının əsası və dayağı yoxdur.

Bir də tarixi həqiqətlərə müraciət edək. Ən başda, Vazgen Kazaryanın məşhur erməni alimi Stepan Boqosyana yazdığı məktuba baxaq. ( S. Boqosyan - alim, Sovet Ermənistanı Radio- TV nəşrləri komitəsi köhnə başçısı , Ermənistan Kommunist Partiyası köhnə I katibi - AM).

"- Hörmətli Stepan Bogosyan ! ... Məqalədən ortaya çıxan budur ki , Xanasor hərəkəti erməni millətinin yaddaşında qorunduğu kimi reallaşmamış . Bununla nə demək istəyirsiniz? "Ey ermənilər, əgər indiyə qədər erməni fədailərinin ( Hayduk ) silahlarını qadın və uşaqlara doğrultmadıqlarını və güllələmədiklərini zənn edirsinizsə yanılırsız. Güllələdim ! Həm də necə güllələdimmi demək istəyirsiniz ? Bunumu göstərmək istəyirsiniz? Xalqın gözündə fədailərin əziz xatirəsini alçaltmaqmı istəyirsiniz? "- Bu məktub" ՀայԱրիներ "(" erməni aryanlar " , № 63 , 64, Oktyabr , 2005) qəzetində və daha sonra" ՀԱՑԱՐԻԱԿԱՆԶ "(" Zovarmari – Ermənilerin səsi ") saytında nəşr olundu.

Vazgen Kazaryanın söz açdığı Xanasor hərəkəti haqqında ermənilərin "narıland.com "saytından oxuyuruq: (Xatırladım ki, bu hərakatı ermənilər müqəddəs hərakat hesab edirlər N. Ə.)

" Xanasor hərəkəti 25-27 İyul 1897 " başlığı altında belə yazılıb: " Xanasor hərəkatı erməni döyüşçülərindən ibarət olmuşdur. Bu hərakatın məqsədi Mazrik Kürd Tayfaları İttifaqını məhv etmək idi. Bu hərakat Daşnak Partiyası tərəfindən yaradılmışdır. Onların məqsədi bu tayfanın döyüş gücünü məhv etmək və intiqam almaq idi və onlar kürdlərdən intiqam aldılar. (Nəyin intiqamını görəsən? N.Ə) 25 İyul 1897-ci ildə səhərə yaxın vaxtda 250 (başqa qaynaqlara görə, 150-300 arası) döyüşçülərlə bir basqınla Mazrik Kürd Aşiretinə hücum etdilər və zəfər qazandılar ... Basqın 27 İyulda sona çatdı ".

Bu məqalədə döyüşçülərin əsas olaraq tayfanın kişilərini öldürdüklərini qadın və uşaqlara isə toxunmadıkları yazılır. Amma silahlıların döyüş taktikalarını azca da olsa bilən anlayır ki, ani bir hücumda , hələ ortalıq aydınlanmadan səhərə yaxın, insanın çoxu yuxudaykən bu hücum edilibsə , kişilərin harada , yaşlı qadın və uşaqların harada olduqlarını bilməyin mümkün ola bilməyəcəyini anlar. Bu üç günlük müharibənin sonunda Mazrik Kürd Aşireti bütünlüklə qətlə yetrilmiş, 40.000 qədər insan öldürülmüşdür (bax: http://www.aztagdaily.com/archives/22143 40.000 insan öldü) . Məqalədə isə yalnız 25 inansın öldürüldüyü yazılıb. (başqa qaynaqlara görə -20 ). Bu ortaya çıxan sayı tərəflərin döyüşdə verdikləri itkin sayı deyil . Ayrıca məqalədə izah edildiyinə görə iki erməni keşiş də silahlı qruplarla birlikdə bu hərəkətə qatılmışdır. Xanasora edilən hücumun 1915-ci il hadisələrindən 18 il əvvəl icra edildiyinə diqqət yetirək. 1915-ci ilə gəlindiyində kürdlərin yeni bir Xanasor qisası quruplaşdığının yetişdiyini də anlamaq lazımdır. Ermənilərə qarşı nifrət səbəbi olan, erməni fədailərinin hərəkətlərinin xatirələrindən gücünü almış bu kürdlərin bir hissəsinin ermənilərə qarşı cəzalandırma əməliyyatlarında iştirak etmiş ola biləcəkləri qəbul edilə bilər. Xanasor hərəkəti erməni hərbiçilər tərəfindən edilən tək qanlı hücum deyil Ermənilərin onlarla belə hücumları olmuşdur, lakin Osmanlı hokuməti əhəmiyyət verməmişdir.

Sərhat bölgəsində bir Yezidi Kürd də zamanında mənə buna bənzər bir hadisə söyləmişdir. 1915 –ci il hadisələrindən sonra qaçqın olaraq 1918-ci ildə yaxın qohumlarıyla birlikdə Ermənistandakı Kürd kəndimiz Pampada məskunlaşmışdır. Onun dediyinə görə, kürd kəndi Sorkuli (yüzlərlə evə sahib böyük bir kənd) eyni şəkildə bir gecədə yox edilmiş əhalisi qətlə yetirilmişdir. Gecə vaxtı kəndə hücum edən ermənilər kəndin bütün sakinlərini qətlə yetirmişlər və kəndə od vurub yandırmışlar.

O zaman qətlə yetirilmiş kürdlərin fotoşəkillərini çəkəcək və ya hadisələri detallarıyla yazacaq olan kəslər yox idi. Bu siyasət bu gün də icra edilməkdə və yenə kimsədən bir səs çıxmır. Kürd xalqı etmədiyi şeylər üzündən günahkar göstərilmə siyasətinin , haqsızlığının və əxlaqsızların əxlaqsızlığının qurbanı olmuşdur. Kürdlər , Osmanlı Dövlət mexanizmində silah vəzifəsi görmüş bu xainləri günahkar elan etmiş olmalarına baxmayaraq, ermənilər qanlı "Xanasor qətliamının" ildönümünü "zəfər günü " kimi, bir bayram kimi qeyd edir və bu hücuma həsr edilən mahnı və marşları oxuyurlar. Erməni siyasi liderləri bu qanlı və faciəli hadisəni tərifləmə və ucaltma fikirlərindən bu günə qədər əl çəkməyiblər..





*Səhifəni hazırladı: Tahir Süleyman*

## Kimliyindən asılı olmayaraq, hər bir Azərbaycan vətəndaşı harada olmağından asılı olmayaraq faciələrimizi, ələlxüsüs Xocalı faciəsini dünya ictimaiyyətinə çatdırmalıdır!

# Xocalı soyqırımı Kürdüstanın Ərbil şəhərində keçirilən konfranslarda qaldırılıb

Kürdüstan bölgəsinin Səlahəddin universitetinin rektoru Əhməd Dzeyinin rəhbərliyi ilə “Osmanlı dönəmində Yaxın Şərq və Kürdüstanın siyasi durumu” mövzusunda 17 ölkənin iştirakı ilə keçirilən konfransa Azərbaycandan beş nəfərlik nümayəndə heyəti də dəvət olunmuşdur.

İlkin olaraq türkmən Yazıçılar birliyinin sədri və “Yurd” dərgisinin baş yazarı, sabiq türkmən millət vəkili Əsəd Ərbil, Ərbil



şəhərində Yazıçılar Birliyinin konfransında iştirak etmək üçün bizi dəvət etdi. Mövzu “Hələbçədə, Balisanda kürdlərin, türkmənlərin Səddam Hüseyn tərəfindən kimyəvi silahlarla soyqırıma məruz qalması” mövzusunda, yaxşı yazarlara təqdimat keçiriləcəkdi. Əsəd Ərbil başda olmaqla türkmən və kürd şair və yazıçıları bizi də dəvət etdilər və biz konfransa getdik. Yazıçılar Birliyinin konfransında, mən cəhd etdim ki, ermənilərin 1992-ci ildə Azərbaycanda yaşayan türklərə, kürdlərə qarşı törətdikləri faciələri, ələl xüsus Xocalı soyqırımı məsələsini gündəmə qoyun. Əvvəlcə onlar tərəddüd etdilər və dedilər ki, bu gündəlikdə yoxdur. Amma mən təkid etdim, Xocalı ilə bağlı apardığımız kitabları, şəkilləri göstərdik. Dedik ki, Səddam Hüseyn kimyəvi silahla insanları kütləvi şəkildə qırıb. Ermənilər isə qırmaqdan əlavə insanların gözlərini çıxardıblar, başlarının dərisini soyublar. Yəni bunlar daha dəhşətlidir. Xocalıda azəri türkləri ilə bərabər kürdlər də olub.

Yəni təkidlə məsələni gündəliyə saldırdım. XIX əsrdən ermənilərin Qarabağa gətirilməsi, 1915-ci illərdə erməni-türk müharibəsi dövründə camaatın Qərbi Azərbaycandan məcburi İrana mühacirət olunması, Sovet hökuməti dövründə qayıtması, 1937-ci ildə kürdlərin Orta Asiya və Qazaxıstana sürgün olunması, 1947-ci ildə azərbaycanlıların Qərbi Azərbaycandan kütləvi şəkildə deportasiya edilməsi, Dərələyəz, Zəngəzur mahallarının boşaldılması məsələlərini tarixi faktlarla gündəmə gətirdim. Xocalı məsələsinə geniş yer verərək orada olan hadisələri, əlimizdə olan məlumatları çatdırdım. Aprelin 16-da Səlahəddin Universitetində 17 dövlətdən gələn qonaqların iştirak etdiyi konfransda mən Xocalı məsələsini qaldırmaq istədim. Bu zaman konfrans rəhbərliyi qeyd etdi ki, bu tarixi bir mövzudur, siyasi mövzu deyil. Dedim o halda icazə verin xaricdən gələn jurnalistlərlə mətbuat konfranslı keçirim. Biz Xocalı ilə bağlı əlimizdə



olan 300-400-ə qədər şəkilləri, fakt olaraq çıxartdıq və xaricdən gələn jurnalistlərə təqdim edərək başa saldıq ki, belə bir hadisə baş verib. 50-dən artıq xarici jurnalistə 20 yanvar hadisələrini, Qarabağ hadisələrində partladılmış avtobusları, Bakı metrosundakı terror aktını əks etdirən şəkillər payladıq. Onlarda böyük maraq oyandı və dedilər ki, niyə Azərbaycan hökuməti və diasporası bu məlumatları bizlərə çatdırmır, bizimlə əlaqə saxlamır? Mən də onlardan xahiş etdim ki, siz də konferans rəhbərliyinə deyin, Xocalı soyqırımı məsələsini gündəliyə salarsa, biz konfrans iştirakçılarına Xocalı məsələsini şərh edərik. Xaricdən gələn jurnalistlərlə yerli jurnalistlər gedib konfrans rəhbərliyindən xahiş etdilər və bu məsələnin gündəliyə qoyulmasının razılığını aldıq.



Konfrans qabağı biz Xocalı, Qarabağ, 20 yanvarla bağlı 400-dən artıq şəkil və məlumatlar payladıq. Ondan sonra mən Xocalı soyqırımı ilə bağlı, Azərbaycanla bağlı geniş çıxış etdim. Çıxışım böyük alqışlarla qarşılandı. Bundan sonra müxtəlif siyasi partiyalarla görüşdük və Azərbaycanın başına gətirilən hadisələri gündəmə gətirdik. Mən universitetin tarix və ədəbiyyat fakültəsində də müəllim və tələbələrlə qarşısında seminar keçirdik, tarixi hadisələr, başımıza gələn bəlalar haqqında məlumat verdik, onlara əlimizdə olan vərəqələr payladıq. Ayın 20-də mən məsələni Kürdüstan parlamentinin gündəminə qoymağa çalışdım. Lakin Siyasi Bürodan bizə bildirdilər ki, biz Kürdüstan Hökuməti olaraq dəfələrlə Azərbaycan hökuməti ilə diplomatik əlaqələrə girməyə çalışsaq da, bu məsələ hələ də baş tutmayıb. Dedilər 50-yə yaxın ölkənin səfirliyi, konsulluğu Kürdüstan bölgəsində var. Lakin təəssüflər olsun ki, Azərbaycan hökuməti soyqırımla bağlı bizə müraciət etməyib. Ona görə də məsələni Kürdüstan parlamentinə qoya bilmərik. Bu, qanundan kənardır. Türkiyənin Ərbildəki konsulunun müavini İbrahim bəylə görüşdük. O da dedi ki, Xocalı məsələsinin qaldırılması çox yaxşı oldu. Əgər burada Azərbaycan səfirliyi olarsa biz bu məsələni daha qabarıq şəkildə gündəmə gətirə bilərik. Bələliklə biz Azərbaycanla bağlı beş konfrans və seminar keçirtdik. Türkmən Yazıçılar Birliyində, Türkmən Mədəniyyət Mərkəzində olduq, Molla Musa Bərzaninin məzarını ziyarət etdik”. Tahir Süleyman onu da vurğuladı ki, “Diplomat” qəzetinin idarə heyəti adından İraqda Azərbaycan səfirliyinin açılması üçün ölkə prezidenti İlham Əliyev cənablarına iki dəfə müraciət ediblər, lakin Xarici işlər nazirliyinin verdiyi cavab sabitliyin olmamasıdır.

Azərbaycanın İraqda səfirliyin açılması haqqında 2010-cu il noyabrın 12-də prezident İlham Əliyevin sərəncamı var. Lakin nədənsə, bu sərəncam indiyə qədər icra olunmayıb. Ermənistanın səfirliyi isə on illərdir İraqda fəaliyyət göstərir. Arzu edirik ki, yaxın zamanlarda Azərbaycanın da səfirliyi Kürdüstan bölgəsində fəaliyyət göstərsin.







**Kimliyindən asılı olmayaraq, hər bir Azərbaycan vətəndaşı harada olmağından asılı olmayaraq faciələrimizi, ələlxüsüs Xocalı faciəsini dünya ictimaiyyətinə çatdırmalıdır!**

# Kürdüstan muxtariyyətində Azərbaycan söhbəti...

## *Xocalı faciəsi Ərbil şəhərində anıldı; müxbirimiz Şimali İraqdan yazır...*

Azərbaycandan Şimali İraqın Kürdüstan muxtariyyətinin paytaxtı Ərbil şəhərinə gedən 5 nəfərlik nümayəndə heyəti artıq bu ölkəyə çatıb. Məlum olduğu kimi, "Diplomat" qəzetinin baş redaktoru Tahir Süleymanın təşəbbüsü ilə 5 nəfərlik nümayəndə heyəti Səlahəddin Universitetində keçiriləcək "Osmanlı imperiyası dövründə Yaxın Şərqdə ictimai-siyasi vəziyyət" mövzusunda konfransda iştirak etməyə dəvət olunublar.

Heyətdə təşkilatçıların dəvətini qəbul edən "Yeni Müsavat"ın əməkdaşı Emil Salamoğlu da var. Nümayəndə heyətinin Ərbildə yaşayan kürd və türkmən ziyalıları, eləcə də hökumət təmsilçiləri, ədiblərlə görüşləri nəzərdə tutulur.





Bu görüşlərdən əlavə, müxbirimiz Şimali İraqda ictimai-siyasi vəziyyət haqda reportajlar da hazırlayır. Reportyorumuzun bölgə ilə bağlı ilkin təəssüratları belədir:

"Şimali İraqın sərhəd qapısından şəhər mərkəzinə qədər yoxlanış məntəqələrində əli silahlı polislər şəhərə daxil olan hər kəsə nəzarət edir. Şəhərin giriş-çıxışında hər bir maşın yoxlanılır, maşındakı şübhəli sərnişinlərin pasportlarına baxılır. Burada deyilir ki, polislər terrorçuları bir baxışdan tanıyırlar. Yalnız şübhələndikləri adamları saxlayırlar. Ərbil İraqın ən sabit bölgəsidir. Ona görə də başqa əyalətlərdən Ərbilə axın var. Şəhərdə tikinti bumu yaşanır. Hər yerdə binalar inşa edilir, parklar salınır. Türkiyə mətbuatının da yazdığı kimi, görünən budur ki, Ərbil gəlişməkdə olan yüksək səviyyəli bir paytaxtdır.

Nümayəndə heyəti aprelin 14-də Ərbil şəhərində təşkil olunmuş Kürdüstan Yazıçılar Birliyinin tədbirində iştirak edib. Tahir Süleymanın təşəbbüsü ilə proqramda olmayan Xocalı faciəsi ilə bağlı mövzu gündəmə salınıb və çıxışçıların sırasında T.Süleyman Xocalı faciəsində ermənilərin başımıza gətirdiyi fəlakətləri konfrans iştirakçılarının diqqətinə çatdırıb.

Türkmən Yazarlar Birliyinin sədri Əsəd Ərbil və İdarə Heyətinin üzvü Riyaz Dəmirçi də konfransda dəvət əsasında iştirak ediblər. Tədbirin əsas məqsədi Səddam Hüseynin hakimiyyəti dövründə kütləvi qırğına məruz qalan Ələbcəlilərə dair bədii əsər yazan ədiblərin mükafatlandırılması olub.

Konfransda ölkənin mədəniyyət naziri Doktor Kava Mahmud və Ərbil valisi Nevzad Hadi iştirak ediblər.

Mərasim Hələbcə və Xocalı qətliamı qurbanlarının bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb. Hələbcə qətliamı ilə bağlı Ərbil valisi və başqa yetkililər çıxış ediblər.





Daha sonra Tahir Süleymana söz verilib. Azərbaycan mediasında birmənalı qarşılanmayan T.Süleyman "Yeni Müsavat" müxbirinin birbaşa müşahidəsi olan konfransda erməni faşistlərinin Xocalıda azərbaycanlıların başına gətirdiyi müsibətlərdən, vəhşiliklərdən söz açıb. Qeyd edib ki, illər keçdikcə bizi göynədəcək bu faciə xalqımızın yaddaşından silinməyəcək:

"Əksinə, xalqımıza daha dözümlü olmağa, erməni şovinizminə qarşı mətin mübarizə aparmağa səbəb olacaq. Xocalı faciəsi nə Hələpca, nə Xatın, nə də Sonqimidir. Xocalı faciəsi daha ağır və dözülməz olub. Bu ağrı yaddaşımızdan heç vaxt silinə bilməz".

T.Süleyman Xocalı soyqırımında qətlə yetirilənlərin statistikasını açıqlayıb və vurğulayıb ki, bu dəhşətli faciə haqda bütün dünya məlumatlı olmalıdır: "Xocalıda 623 nəfər həlak olub, 8 ailə tam məhv edilib, 25 uşaq hər iki valideynini itirib. 230 uşaq bir valideynini itirib.

1275 nəfər əsir götürülüb. Xocalıya 5 milyard manat ziyan dəyib. İnsanlarımıza zülm olunub. Körpələr, yaşlılar, qadınlar amansızlıqla qətlə yetirilib.

Nə yaxşı ki, Çingiz Mustafayev kimi oğullar həyatlarını təhlükəyə ataraq bu hadisələri çəkib bütün bəşəriyyətə çatdırıblar. Xocalı bizim sağalmaz yaramız, ana-bacılarımızın ahnaləsi, körpələrimizin göz yaşlarıdır". T.Süleymanın çıxışına görə konfrans iştirakçıları ayağa qalxaraq alqışlayıblar. Konfransdan sonra onlar Xocalı hadisəsinin Ş.İraq ictimaiyyətinə lazımi şəkildə çatdırılmamasından şikayətləniblər. Yekunda Ş.İraqın mədəniyyət naziri və Ərbil valisi Hələbcə mövzusunda yazan bədii əsərlərin qəliblərini mükafatlandırıblar.

***Emil SALAMOĞLU,***
***musavat.com***
***"Diplomat" qəzetinin 240-cı sayından***

412:1.QXD 27.02.2018 21:49 Page 8



# ERMƏNILƏRIN "DƏNIZDƏN DƏNIZƏ" ERMƏNISTAN XÜLYASINI GÖZÜNDƏ QOYAN İSMAYIL AĞA SIMKO

**İran Hökumətinin xaincəsinə öldürtdüyü İsmayıl Ağa Sımkonun ölümündən 80 il keçdi.**

1880-ci ildə böyük inqilabi hərakata başlayan Şeyx Ubeydulla inqilabının yatırılmasından sonra İran Kürdüstanında, aşirət rəisi və dərəbəylərinin rəhbərliyində siyasi və milli məqsədlərlə başlayan hərəkat demək olar ki, sona yetdi.



Kəlbağı, Cuanruyi kimi aşirətlərin ağır vergi ödəmələri səbəbindən zaman-zaman baş qaldırdıqları üsyanlar gerçəkdə milli məqsədlərdən və yurdsevər bir anlayışdan baş qaldırmışdı.

Muzafferuddin şah zamanında İran hər baxımdan ağır çətinliklərlə üz-üzə qaldı. Ölkənin gəlir və zənginlik qaynaqları iflasa uğradı. Hər aşirət rəisi özünün bölgəsinə müstəqil hökumət kimi baxırdı. İran Kürdüstanında Səlmas (Şapur), Urmiya (Rzaiyə) və ətrafının ən böyük kürd aşirəti olan Şıkakilər hökumətə tabe olmurdu. Sımko, bütün Şıkaki aşirətinin rəisi olub, Avdoyu boyuna mənsub idi. Sımko olduğu əraziyə hər baxımdan sahib olmuş, dövlətin buradakı hökmünə son vermişdi.

1905-ci ildə Muzafferrudin şahın avropa səyahətinə çıxdığı bir vaxt Nizamül-Səltənə adlı bir əsilzadə Azərbaycana vali olaraq göndərildi. Nizamül-Səltənə, Şıkaki aşirətini dövlətə boyun əydirmək istəyirdi. Amma bunun Şıkak aşirət rəisi Məhmət ağaya müharibə ilə qalib gələcəyinə inanmırdı. İkiüzlü sümürgəci bütün düşmənlər kimi o da müxtəlif planlar, hiylələr hazırlamağa başladı.

Özlərinə pislik etməyəcəyini və işbirliyi görəcəyini söyləyərək rəsmi bir dəvətlə Məhməd ağanın oğlu Cəfər ağanı Təbrizə dəvət etdi.

Yaxşı niyyətli və Qurana inamı olan Cəfər ağa dayısı Mirzə və altı qoruyucusu ilə birlikdə Təbrizə gedir və ilk öncə yaxşı qarşılanır.

O vaxtlar Qafqazlarda ermənilər rus havadarlarının köməyi ilə Türkiyə, İrəvan və Azərbaycanın müxtəlif bölgələrində və eləcə də Şaumyanın və Mikoyanın planları əsasında Bakıda Azərbaycanlıların soyqırımına başlamışdılar. Onların planlarına görə, bu günki işğal olunmuş ərazilər, Zəngəzur, Naxçıvan, Gəncə, Qazax, Tovuz, bir sözlə, Kürə qədər olan ərazilər, Bakı və Bakı ətrafı ərazilər onlar tərəfindən soyqırım aparılaraq işğal olunmalıydı.

Nizamül-Səltənə 1915-ci ildə Türkiyədə kürdlər tərəfindən burunları ovularaq geri qayıdan ermənilərin asayişi pozmalarının qarşısını almağa və xalqın güvənliyini saxlamaq işini Cəfər ağaya həvalə etmək istədiyini bildirir. Əl altından isə onu öldürməyin planını hazırlayırdı. Məsələ ilə bağlı planı həyata keçirməkdən ötrü bura gəlişinin ertəsi günü Cəfər ağa Nizamül-Səltənə ilə görüşmək məqsədilə valiyə aid olan qonaq evinə göndərilir. Ancaq onun öldürülməsi üçün qonaq evinin çevrəsinə tapşırıqla lazımi pusqular qurulmuş, silahlı adamlar uyğun yerlərdə yerləşdirilmişdi.

Cəfər ağa hər şeydən xəbərsiz qonaq evinə gəlir və Qaracadağlı Məhməd Hüseyn xan Zərhami və adamları tərəfindən yaylım atəşinə tutularaq öldürülür. Cəfər ağanın adamları silah səsinə hadisə yerinə gəlirlər. Cəsədin aparılmasının qeyri-mümkün olduğunu görüb canlarını qurtarmaq üçün vuruşurlar və iki ölü verərək Uruğ kəndində düşmənlə qarşı-qarşıya gəlirlər. Bu beş kürd qəhrəmanı çətin bir döyüş sonunda bir neçə əsgər öldürərək onların atlarına minir və Kürdüstana dönməyi bacarırlar.

Cəfər ağanın bu şəkildə tələyə salınıb öldürülməsi Məhməd ağa və oğlu İsmayıl ağa Sımkonu dərindən hiddətləndirdi. Bunun sonucu İran dövlətinə qarşı mübarizə aparmaq, İran hökumətinin Kürdüstanın bu bölgəsindəki hökmranlığına son verib öz idarəçiliyinə keçirmək qərarına gəlir.

İsmayıl ağa Sımko başqa siyasətçilər kimi istək və arzularını gerçəkləşdirmək üçün bir-birlərinə düşmən olan Türk və İran dövlətləri arasındakı münaqişədən yararlanmışdır. O vaxtlar Osmanlı-İran sərhədlərini müəyyənləşdirmək üçün təyin edilmiş komissiya fəaliyyət göstərirdi. BMT-nin qərarına görə, Qotol (Qopur) dərəsi və ətrafı İranda, Şıkak aşirətlərinin hakimiyyəti altında olan ərazini Osmanlı dövləti qəbul etmək istəmirdi. Sımko bu anlaşılmamazlıqdan yararlanaraq o ərazilərə əl qoyub öz hökmü altına aldı və dövlət elan etdi.

**İsmayıl ağanı öldürmək planları**

Sımko İran dövləti qarşısındakı mövqeyini bildirdikdən sonra silahlı qüvvə toplamaqla, bölgə üzərindəki hökmranlığını göstərdi.

Azərbaycan valisi Mükərrəmül-Məlik Sımko ilə müharibə etməyin çıxış yolu olmadığı düşüncəsiylə onu xaincəsinə öldürmə planlarını hazırlamağa başladı. Bir bombanı şirniyat qutusu həcmində hazırlayaraq Xoydan xüsusi olaraq İsmayıl ağa adına göndərir. Hadisəni İsmayıl ağa belə nəql edir:

"Həyətdə oturmuşdum. Uşaqlar bir şirni qutusu gətirdilər. Nənələrinin onlar üçün göndərdiyini güman edərək həmən içinə baxmaq istəyirlər. O anda Heydər Əroğluna Nizamül-Şucadan bir şirni qutusu göndərildiyini və açdıqda partlayışdan öldüyünü eşitmişdim. Bir şübhə düşdü içimə. Uzağa götürün dedim. Uzaqlaşdırılarkən bir aydınlıq göründü gözümə. O saat oğlumu qucağıma alaraq özümü yerə atdım. Bomba partladı. Mən qurtuldum, ancaq qardaşım Əli və bir neçə adam öldü".

Mükərrəmül-Məlikin bu namərdliyinə görə, 1919-cu ildə İsmayıl ağa Sımko çalışmalarını daha gücləndirərək bölgəni dövlətin əlindən alır və öz hökmü altına salaraq daha da gücləndirdi. Təbriz-Urmiya yolunu tutub, gediş-gəlişi kəsdi. Hökumət yalnız Urmiya gölü üzərindən bölgə ilə əlaqə saxlaya bilirdi.

**Erməni-Assuri ordusunun rəhbəri Mar Şəmunun Sımko tərəfindən öldürülməsi**

I Dünya Müharibəsi və Türkiyədə ermənilərin Rus-İngilis-Alman-Yunan havadarları tərəfindən bir erməni dövlətinin qurulması planı üzrə ermənilər kütləvi qırğınlar törətdilər, bir milyondan artıq insanı qətlə yetirdilər. Bundan sonra 25 minlik rus-erməni-assuri ordusu İran ərazisinə keçərək Səlmas, Urmiya və Xoy ətrafında yerləşdilər. Bunlar rus-türk müharibəsi zamanı Çar Rusiyası tərəfindən silahlandırılmışdılar. Amerikalı erməni milyonerlər də onlara arxa dururdular. Başqa bir tərəfdən onların ingilislərlə də əlaqələri vardı. Bu dövlətlər Səlmas, Urmiya və Həkkari arasında qalan ərazidə Erməni-Assuri dövləti qurmaq istəyirdilər. Hətta, Rusiya və İngiltərə kimi iki böyük dövlətin də bu planda barmaqları vardı. Məqsədləri Səlmas, Urmiya bölgəsi ilə Həkkari sərhəddi arasında özlərinə bağlı və Türkiyəyə qarşı bir dövlət qurmaq, sonra isə Van və Həkkarini də bu əraziyə qatmaq istəyirdilər. Bu hədəfə çatmaq məqsədiylə yüksək ingilis nümayəndəsi, assuri, erməni və kürd xalqları arasında bir birlik yaratmaq istəyirdi. Ancaq kürdləri belə bir plana razı salmadan erməni-assuri dövləti qurmaq ideyasını gerçəkləşdirə bilməyəcəklərini yaxşı bilirdilər.

Türkiyədən qovulmuş ermənilərlə assurilər Urmiya və Təbrizə tərəf qaçdıqları zaman qırğına və talana girişdilər. Yerli əhaliinin qırılanı qırıldı, qalanı isə canlarını qurtararaq içərilərə köçməyə



başladılar. Assurilərin rəhbəri Mar Şəmun, qərargahını Səlmas yaxınlığındakı Xosrov ağa qəsəbəsində qurdu və 25 minlik ordu ilə bölgədə ağalıq etmək fikrinə düşdü.

Ermənilərin və assurilərin bu bölgədə yerləşməsi Sımko ağanı narahat etməyə başladı. O, əl altından Azərbaycan bəylərindən, ağalarından kömək istədi.Lakin Sımko ağa bölgədə müstəqillik əldə etdiyindən şah Azərbaycandan ehtiyat edərək böyük bir gücü Azərbaycanda saxlayırdı.

412:1.QXD 27.02.2018 21:49 Page 9



# ERMƏNILƏRIN "DƏNIZDƏN DƏNIZƏ" ERMƏNISTAN XÜLYASINI GÖZÜNDƏ QOYAN İSMAYIL AĞA SIMKO

Şeyx Ubeydulla, İsmayıl ağa hərakatı şahın gözünü qorxutmuşdur. Neçə illəridi ki, Kürdüstanda ağalar baş qaldırmış və özlərini müstəqil elan etmişdilər. Lakin rusların, ingilislərin, ermənilərin Amerikadakı havadarları və İran, Türkiyə dövlətləri imkan vermirdilər ki, dünya dövlətləri Kürdüstanı tanısınlar.

Ona görə İran şahı erməni və assurilərin rus və ingilis havadarlarının Kürdüstan və Azərbaycanda yerləşməsinə göz yumurdu. Ona görə ki, əsrlərdən bəri Kürdüstan inqilablar ocağı olmuşdur. İstər İran, istərsə də Türkiyə parçalanmış Kürdüstanın gücünü, birliyini dağıtmaq üçün həmin ərazilərdə ermənilərlə assurilərin yerləşməsinə göz yumurdular. Ancaq onlar düşünmürdülər ki, belə bir dövlətin qurulmasının aqibəti necə olacaqdır.

A. Kəsrəvi "İran Məşrutiyyət Tarixi" adlı kitabında bunları yazır:

"Erməni və Assuri ordusu Urmiya şəhərini asanca ələ keçirdi. Mar Şəmun bir qrup assuri və erməni ilə birlikdə Səlmasa doğru hərəkət etdi. Mar Şəmun İsmayıl ağanı yanıltmaq istəyirdi. İsmayıl ağaya xəbər göndərərək onunla bir yerdə görüşmələrini arzu etdiyini bildirdi. 1918-ci ilin fevral ayında Konəşarda görüşməyi qərara aldılar.

Mar Şəmun yanına silahlı 140 süvari və seçkin adamlar alaraq bir faytona minir və şərtləşdikləri gündə görüş yeri olan Konəşara gəldi".

Təqdimatçı və tarixçi yazar Ələddin Secadi "Kürd inqilabları(başqaldırılarında)" kitabında göstərir ki, çar Rusiyası, bu ölkədə bolşeviklərə qarşı əngəllər etmək istəyirdi. Bunun üçün üsyanlar ölkəsi olan Kürdüstanın bu bölgəsində yaşayan kürdlərin, ələlxüsus İsmayıl ağanın səsini söndürmək fikrindəydilər. Ruslar Mar Şəmunla danışıqlar apararaq bir anlaşma əldə etdilər: "Bu məmləkətdə İsmayıl ağa var. O, həm çarın, həm də Mar Şəmunun önündə bir əngəldir dedilər. Başlanğıcda kürdlərlə ermənilərin birlikdə bir hökumət qurmalarını əldə etmək məqsədilə Sımko ağa ilə görüşmələr etdilər. Ancaq həqiqətdə Sımkonu və kürdləri aradan çıxararaq doğrudan doğruya bir erməni və assuri dövləti qurmaq istəyirdilər".

Bu həqiqətə çox bənzəyirdi. Çünki, yuxarıda qeyd etdiyimiz kimi Mar Şəmunun təlimli 25 min silahlısı varidi. Bunlar əsgəri ordunun komandası altında idi. Arxasında ingilislər və Rus çarının hər cür dəstəyi vardı.

**I Dünya Müharibəsinin sonunda ölkədə olan şərait və durum**

İsmayıl ağanın qüvvələri isə nə o dərəcədə təlimli, nə də dissiplinə sahib idi. Təməldə əşirət qüvvələri birliyi idi. Ayrıca, ona arxa çıxıb silah və cəbhəxana baxımından yardım verən hər hansı bir dövlət də yox idi. Belə olunca Sımkonun ortadan qaldırılması ermənilər üçün bir içim su kimi asan olacaqdı.

İsmayıl ağa Sımko yaxşı bilirdi ki, erməni və assurilər Türkiyədə kürd bəy və ağalarını bir yerə yığaraq güya kürd dövləti qurmaq planlarını hazırlayırmışlar. Lakin, qəfildən xain ermənilər kürd bəylərini atəşə tutub hamısını güllələyirlər. Ancaq onlardan biri bayırda olduğu üçün atına minib xalqı xəbərdar edir. Beləliklə kürdlər Türkiyədə ermənilərin kökünü kəsir. Əslində isə ermənilər kürd bəy və ağalarını öldürərək, onların türklər tərəfindən qətl edildiyini yayaraq, onsuz da aralarında olan münaqişəni qızışdıraraq iki müsəlmanı bir-birinə qarşı saldırmaq istəyirdilər. Bu məsələləri yaxşı bilən İsmayıl ağa Sımko hər addımını ölçüb-biçib, düşünülmüş şəkildə atırdı. Necə deyərlər, suyu üfləyə-üfləyə içirdi.

Hətta, bir dəfə Sımkonun siyasətindən baş aça bilməyən bir kürd bəyi Sımkoya qarşı çıxır. Onu başa düşən Sımko ona deyir: "Mən səni yaxşı başa düşürəm, narahat olma. Ata-babalarımızın qanı ilə suvarılmış bu müqəddəs torpaqların üstündə nəinki erməni dövlətinin qurulmasını, heç onların ayaq basmalarını da istəmirəm. Səbrli ol, nəticəni görəcəksən".

İsmayıl ağa Sımko ilə Mar Şəmun arasında keçən görüşmələr haqqında tarixçi və tədqiqatçı Ələddin Səcadi bunları yazır:

"İsmayıl ağa Mar Şəmunu padşahlar üçün hazırlanan rəsmi qayda ilə qarşılayır. Mar Şəmun dini liderlərin geydiklərə allı-şallı geyimlər içində gələcəkdə bir xalqın rəhbəri olacaq adam kimi, çevrə mühafizələri ilə zərli dörd atlı bir faytona minərək, dördü rus olan və faytonda oturmuş vəziyyətdə üzləri qarşıya və yana baxan atlı yüksək rütbəli əsgərin ikisi Mar Şəmunun arxasında ayaq üstə gözləyirdi. Qılınc dəstəklərinə zümrüd və dəyərli mücəvhərlərlə bəzədilmiş qılınclarını qınından çəkib əllərində tutmuşdular. Bu görkəm padşahlara yaraşan bir görkəm idi. Günəş şüaları düşəndə insan heyrət içində qalırdı . Mar Şəmun bu biçimdə Teymur ağanın qonaq evinə endi".

Mar Şəmun görüş yerinə çatan vaxt İsmayıl Ağa arxasında bir sıra adamla Konəşara gəldilər. Ancaq İsmayıl ağa daha qabaqcadan öz adamlarını Teymur ağanın imarətinə göndərmiş və evin əhatəsində özlərinə uyğun mövqe tutmuşlar.

Mar Şəmun oraya çatınca özü otağa keçib oturur və atlıları tam hazır bir vəziyyətdə eşikdə gözləyirdilər. Kəsrəvi bu haqda belə yazır:

"Bizim Mar Şəmun və Sımko görüşməsindən xəbərimiz yox idi. İsmayıl ağanın hadisə haqqında özünün söylədiyinə görə, Mar Şəmun "İndi Kürdüstan deyə adlandırılan bu ölkə bizim, bizim vətənimizmiş. Nə var ki, din Aləmi qarşı-qarşıya bizi bölmüş. İndi birləşməmiz gərəkdir. Ölkəmizi ələ keçirib birlikdə yaşamalıyıq. Ordumuzu birləşdirsək siz də bizimlə olursanız TƏBRİZİ almaq bizim üçün çox asan olar". Çünki şimalda da rusların köməyi ilə Şaumyan və Mikoyanın rəhbərliyi altında Xəzərdən Qara dənizə, Diyarbəkirdən İran körfəzinə kimi bir federativ dövlət yaradacağıq.

Sımko Mar Şəmunun planını öyrəndikdən sonra gülümsəyərək ona "düşünərəm" - dedi. Mar Şəmunu yola salmaq üçün onunla birlikdə bayıra çıxır. Mar Şəmun faytona minən zaman silah səsi eşidilir. **Bu səs istər**



Assuri lideri Mar Şəmun

**Kürdüstanı, istərsə də Azərbaycanı ingilis rus havadarları olan erməni, assuri qırğınlarından qurtarır və ermnilərin dənizdən dənizə xülyasını alt üst edərək Lozanadakı erməni plankeşlərin planını alt-üst edir.** Mar Şəmun yerə yıxılır. Şıkaki silahlı gücləri dörd bir yandan Tiqranın və Mar Şəmunun atlı silahlılarına atəş açır və 100-ə qədər seçmə adamlarını öldürürlər. İsmayıl ağa həmin gün Çariyə dönür. Ertəsi gün sübh tezdən assur və erməni orduları İsmayıl ağaya qarşı hücuma keçirlər. Ətraf kəndlərin əhalisini qətl edərək heç kimə aman vermirlər. İsmayıl ağa çətin bir qarşıdurmadan sonra Çariya şəhərindən çıxmaq məcburiyyətində qalır.

Mar Şəmunun öldürülməsindən sonra xalq, xüsusilə Səlmas və Urmiya ətrafındakı əhali erməni və assurilərin qanlı qırğınlarına hədəf oldu, çoxlu insan öldürüldü. Mar Şəmunla danışıqlara gedən zaman İsmayıl ağa Sımko Osmanlılardan və Təbrizdən yardım istəmişdi. Və o xəbərdar etmişdir ki, 25-000 nizami orduya qarşı vuruşar lakin bu bir çox əhalinin kütləvi qırğına səbəb ola bilər. İsmayıl ağa Sımkodan gözü qorxan şah imkan vermirdi ki, Azərbaycanda bir erkək quş da uçsun. Odur ki, Azərbaycandan heç bir yardım gəlmədi. Bir tərəfdən isə İran şahı o ərazilərdə bir erməni və assuri dövlətinin yaranmasının tərəfdfrı idi. Ona görə erməni və assurilərə ingilislərin vasitəsilə yardım edirdi.

Amma İsmayıl ağa Sımko kürdlərdən ibarət silahlı dəstənin Türkiyədən yardım gəlməyinə inanırdı. Türkiyədən gələn əşirət qüvvələri və eləcə də İraq Kürdüstanından Şeyx Mahmud Bərzənçi qüvvələri gec də olsa köməyə gəldi, erməni və assuri ordularına ağır zərbələr vuraraq məğlubiyyətə uğratdılar. Ermənilər ingilis ordusuna sığınmaq üçün Sayınqəlaya çəkildilər. Mukriyani kürdləri arasında bu il "Çilo ili" olaraq adlandırıldı. Mar Şəmunun öldürülməsindən sonra Rzayidə yaşayan (Urmiya) tarixi yazıçı və tədqiqatçı Əli Dehqaninin dediyinə görə ermənilər və assurilər 109 gün Urimya bolgəsində qətliyamlar etdilər. Uşaq, qadın, kişi demədən 140 min adamı öldürdülər. Kənd və qəsəbələri talan etdilər.

Yaxşı, Sımko heç bir səbəbi olmadan nə məqsədlə Mar Şəmunu öldürdü? Bu haqda müxtəlif fikirlər var. Bəzi tədqiqatçılar Sımkonun bu hərəkətini böyük səhv olaraq qiymətləndirdilər. Ancaq bir qism sənədlərə görə Sımko Rusiya və İngiltərənin dəstəyi ilə Mar Şəmunun belə böyük bir qüvvə ilə Kürdüstanın bu bölgəsində dövlət quracağına inanmışdır. Xüsusilə M.Şəmunun öldürülməsindən sonra liderliyə gətirilən Petros, Lozan konfransında Kürdüstanda assurilər üçün bir yerin təyin edilməsini istəyirdilər.Tipik Fələstində yəhudilərə yaradıldığı İsrail dövləti kimi. Və ya Leninlə Atatürkün razılaşması ilə Araz boyu qədim Azərbaycan torpaqlarının İqdır, Ərzurum, Ağrı, Amasiya, Vana qədər yeni Araz Azərbaycan Cumhuriyyətinin bir hissəsinin Türkiyəyə verilməsinə qarşılıq Türkiyədən qovulmuş və qədim Azərbaycan torpaqlarında yeni qondarma Ermənistan respublikasının yaranması üçün şərait yaratdi və Musavat hökumətini bolşeviklərə təslim etdi.

İranın adlı-sanlı yazarı və şairi Məliküm-Şüarrayi Bahar "Siyasal Partilərin qısa tarixi" adlı kitabında belə yazır:

"Lozan" konfransında erməni Petros Londonun dəstəyi ilə assur və kəldanilərin ən köhnə millətlərindən olduqları, yurdlarının isə Mosuldan Osmanlı Kürdüstanından və İran Kürdüstanından Urmiyaya qədər olan ərazini onlara verilməsini, ayrıca özləri üçün bəlirli bir mərkəz və iqamətgahın verilməsini tələb edirdilər. Bununla birlikdə assurların İngiltərə və Rusiya üçün müxtəlif xidmətlər etdiklərinə və edəcəklərinə söz verirdilər. Türklərin yürütdükləri çabaların Mar Şamunun öldürülməsində üzaq bir fikir yoxdur. Hər necə olursa-olsun Sımkonun bu planı İngiltərə və Rusiyanın Kürdüstanda və Conubi Azərbaycanda bir assur - erməni dövləti qurmaq planını pozmuşdur. Cilo məsələsinin yatırılmasından sonra 1919 -cu ilin yazında Sımko bölgədəki gücühü artırmaq məqsədilə planlarını hazırladı. Təbriz Urmiya yolunu öz himayəsi altına aldı. 1919-cu ilin sonlarında Sipahandari Azam Azərbaycana vali təyin edildi. Sipahsalar Ziyaud Devlə adında birini Urmiya hakimi olaraq göndərilmişdir. O, Sımkoya qarşı dirənməyə və öz müdafiəsini əldə etməyə çalışdı.

**Araşdırdı: Tahir SÜLEYMAN**

412:1.QXD 27.02.2018 21:49 Page 10






## SOYQIRIMI OLDU XOCALIMIZDA

İyirmi altı fevral, dəhşətli o gün,
Soyqırımı oldu Xocalımızda.
O gün ürəklərdə qaldı bir düyün,
Qırıldı oğlanlar, məhf oldu qız da.

"Üç yüz altmış altı" vəhşi o alay,
Səpdi Xocalıya mərmilərini.
Mixail Qarbaçov, tayqulağa tay,
Raisa kısqırdı nadan ərini.

Dünya tarixində belə soyqırım,
Olmamış heç zaman bu vəhşilikdə.
Açıldı neçə min sinədə şırım,
Vəhşilik edildi cüt, ikilikdə.

Kömək eyləməsə sarıqulaqlar,
Erməni kim idi soyqırım edə?
Bizim nökərimiz, tənbəl ulaqlar,
Gücü çata bilməz heç vaxt, heç vədə.

Hayıfı almasaq, ruhlar inciyər,
Gələn nəsillər də qınayar bizi.
Qəhrəman igidlər, deyil ağciyər,
Göstərər "yan" lara kimliyimizi.

Kimlər eylədilər, yaxşı bilinir,
İndi köklənməli qeyrətlərimiz.
Gecikdikcə yaddaşlardan silinir,
Birləşib, bir yumruq olmalıyıq biz.

Yumruğumuz Koroğlunun yumruğu,
Babək qılıncını götürməliyik!
Baş Komandan buyurmalı buyruğu,
Dığanı Ketidən ötürməliyik!

Alaq Xankəndini, Pənahabadı,
Sonradan Şuşaya dönən şəhəri.
Qovaq ermənini, yaşayan yadı,
Minək Qırat kimi olan kəhəri.

Günahsız Xocalı ahı, naləsi,
Gərək ki, qalmasın yerin üzündə.
Yayılsın dünyaya xalqımın səsi,
Məhv edək düşməni Cıdır düzündə

Biz almasaq Qarabağı, inciyər,
Nəbinin, Həcərin qəhrəman ruhu.
Cihad elan edib, birləşsək əgər,
Qırılar erməni, sevinər ahu.

Neçə min günahsız şəhidlərimin,
Qisasını mütləq almalıyıq biz.
Artsın ürəklərdə gündə nifrət, kin,
Tezliklə qələbə çalmalıyıq biz.

**22.02.2007**

# Xocalı müsibəti. Xocalı dərdi. Xocalı faciəsi...

**İllər keçdikcə zaman-zaman bizi göynədəcək bu faciə xalqımızın yaddaşından heç zaman silinməyəcək. Başları kəsilmiş körpələrin fəryadı, bu xalq yaşadıqca heç bir vaxt yaddan çıxmayacaq. Əksinə Azərbaycan xalqına daha dözümlü olmağa, tarixini unutmamağa, erməni vəhşiliklərinə, erməni şovinizminə qarşı daha mətin mübarizə aparmağa səbəb olacaqdır.**

Xocalı faciəsi nə Hələpcədir, nə Zilan dərəsidir, nə Ağrıdır, nə də Dersimdir. Xocalı faciəsi XX əsrdə törədilmiş ən dəhşətli faciədir. Xocalı faciəsi daha ağır, daha dözülməz olmuşdur. 26 fevral 1992-ci il tarixi yaşadıqca bu ağrı heç zaman bu xalqın yaddaşından silinməyəcək. Bu qanlı faciə nəticəsində 623 nəfər həlak olmuş, 8 ailə tamamilə yer üzündən silinmiş, 25 uşaq hər iki valideyinini itirmiş, 230 uşaq isə valideyinlərindən birini itirmişdir.



487 nəfər yaralanmışdır. Onlardan 76 nəfəri uşaqır. 1275 nəfər əsir götürülmüş, 250 nəfər isə itkin düşmüşdür. 01.04.1992-ci il tarixinə olan məlumata görə Xocalıya 5 milyard manat məbləğində ziyan dəymişdir.

Bəs kimdir günahkar? Əslində Xocalı faciəsi bir neçə ay əvvəldən o dövrkü səriştəsiz hakimiyyət strukturlarının işbilməzliyi ucbatından başlamışdı. Çünki başları kreslo, pul, vardövlət yığmağa qarışmış, Xocalı yaddan çıxmışdı. Heç kəs mühasirədə olan Xocalını, olacaq faciələri başa düşmək, Xocalıların dərdinə şərik çıxmaq, baş verə biləcək təhlükələrin qarşısını almaq istəmirdi. 1991-ci ilin oktyabrından blokadada olan Xocalının quru əlaqəsinin bərpasına çalışmaq əvəzinə, Bakıda oturub hakimiyyət davası ilə məşğul idilər. Xocalıya verilən elektrik enerjisinin 1992-ci il yanvarın 2-dən kəsildiyini, yanvarın 28-də isə sonuncu vertalyotun ora getdiyini bilsələr də, heç bir tədbir görülməmişdi.



Şəhərdə qalanlar əsasən qocalar, uşaqlar, qız-gəlinlər, yerli özünü müdafiə dəstələri, Milli Ordunun bir qisim döyüşçülərindən ibarət olmuşdur.

Fevralın ikinci yarısından başlayaraq şəhər aramsız olaraq erməni silahlı dəstələri tərəfindən, toplardan iri çaplı pulemyotlardan, minaatanlardan, avtomatlardan atəşə tutulmağa başlamışdı.

Bəs yaşanmış bu faciələrin günahkarları kimlər idi? Əslində günahkarları kənarda axtarmaq mənasızdır. Əsl günahkar ermənilər deyil, o dövrki səlahiyyətli dövlət nümayəndələri idi. Vaxtında tədbir görülsə idi. Nə xocalı faciəsi yaşanardı nə də digər rayonlar işğal olunardı. Hətta o dövrki hakimiyyət bu faciəni xalqdan gizlətməkdən belə çəkinməmişdilər.

Nə yaxşı ki, Cingiz Mustafayev, onun kimi qeyrətli oğullar var idi. Öz həyatlarını təhlükəyə ataraq bu dəhşətli faciəni, ermənilərin əli ilə 366-cı motoatıcı polk tərəfindən törədilən bu vəhşilikləri bütün dünyaya çatdıran bu şəxslərə allah rəhmət etsin, qəbirləri nurla dolsun ki, bu qanlı tarixi erməni vəhşiliklərini olduğu kimi bütün bəşər övladlarına çatdırmışlar.

O dövrkü hadisələri öz gözləri ilə görən xarici jurnalistlər, belə bir faciənin tarixdə olmadığını bildirərək belə yazırdılar:

***"Krua Eveneman" jurnalı (Paris)***

25 yanvar 1992-ci il-Ermənilər Xocalıya hücum etmişlər.

Bütün dünya eybəcər hala salınmış meyidlərin şahidi oldu. Azərbaycanlılar minlərlə ölənlər barədə məlumat verirlər.

***"Sandi Tayms" qəzeti (London).***

1 mart 1992-ci il-Erməni əskərləri minlərlə ailəni məhv etmişlər.



***"Faynenşl Tayms" qəzeti (London)***

9 mart 1992-ci il-Ermənilər Ağdama tərəf gedən dinc əhalini güllələmişlər. Azərbaycanlılar 200 nəfərə qədər cəsəd saymışlar.

***"Tayms" qəzeti (London)***

4 mart 1992-ci il-çoxları eybəcər hala salınmışdır, körpə qızın ancaq başı qalmışdır.

***"İzvestiya" (Moskva)***

4 mart 1992-ci il-Videokamera qulaqları kəsilmiş uşaqları göstərir. Bir qadının sifətinin yarısı kəsilmişdir. Kişilərin skalpları-baş dərisi soyulmuşdur, ermənilər vaxt itirməmək üçün barmaqdan üzüyü barmaqla, qulaqdan sırğanı qulaqla birlikdə kəsmişlər.

Bütün bunlar Xocalı faciəsinin necə də ağır bir faciə olmasından, xalqımızın başına gətirilən müsibətlərdən, erməni qəddarlığından, erməni vəhşiliklərindən xəbər verir.

Xocalı bizim qan yaddaşımızdır. Xocalı bizim sağalmaz yaramız, uşaqlarımızın göz yaşları, qadınlarımızın, ana və bacılarımızın ah-naləsi, fəryadıdır... Xocalı bizim qanla yuyula biləcək bir ləkəmizdir!

Xocalı faciəsi elə bir ağır yükdür ki, tarix yaşadıqca bu yükün ağırlığını hiss edəcəyik.

Xocalı faciəsi tariximizin qanlı səhifəsidir. Bunu heç vaxt unutmaq olmaz.

Ey ulu tanrı, Azərbaycan xalqına Xocalı kimi faciə bir daha qismət etmə, ulu tanrı heç bir xalqın taleyinə belə bir qanlı səhifəni yazmasın. Başları kəsilmiş, gözləri çıxarılmış, namusuna təcavüz edilmiş qadınların göz yaşları, ah naləsi bizi hər an döyüşə səsləyir.

***Səhifəni hazırladı: Tahir Süleyman***

# Mir Möhsün Nəvvab kimdir?



**Doğum tarixi:**
1833-cü il
Doğum yeri: Şuşa
Vəfatı: 1918-ci il
Vəfat yeri: Şuşa

Mir Möhsün Nəvvab Azərbaycanın Şuşa şəhərində yaşayıb-yaratmış şair, rəssam, xəttat və musiqişünas alim.

## Şuşa

Şuşa şəhəri həmişə Azərbaycanın mədəniyyət mərkəzlərindən olub. Məşhur alim, musiqişünas Firidun Şuşinskinin sözlərinə görə, XIX əsrdə bu kiçik şəhərdə 95 şair, 22 musiqişünas, 38 peşəkar müğənni, 16 rəssam, 5 astronom, 18 memar, 16 həkim yaşamışdır. Şəhərdə ona yaxın ədəbi, musiqi və digər cəmiyyətlər, ondan artıq mədrəsə və müxtəlif tipli məktəb fəaliyyət göstərirdi, Dağlar qoynu Şuşada orta əsrlər elm, incəsənət və mədəniyyət ənənələri Azərbaycanın hər yerindən daha artıq dərəcədə özünə qərar tuta bilib. Zəngin kitabxanalarda xəttatlar kitabların üzünü köçürür, rəssamlar şəhər binalarının divarlarına nəqşlər vurur, kitablara miniatürlər çəkirdilər. Xalça emalatxanalarında sonralar dünyanın ən böyük muzeylərinin bəzəyi olacaq xalçalar toxunurdu. Musiqiçilər Qarabağ muğam məktəbinin adını daim uca tuturdular. Bəlkə də məhz buna görə XIX əsrin ortalarında Azərbaycanın hər yerində kapitalist münasibətləri cücərən və yeni təfəkkür yaranan bir zamanda orta əsrlərə məxsus elmi biliklər sisteminə sahib ensiklopediyaçı alim Mir Möhsün Nəvvab bu şəhərdə yaşayıb-yaradır. Görkəmli musiqiçi, şair, rəssam, xəttat, münəccim, kimyaçı və riyaziyyatçı olan Mir Möhsünü əsərlərinin məzmunu, səviyyəsi və həcmi etibarilə həqiqətən də orta əsrlərin sonuncu ensiklopedist alimləri dəstəsindən hesab etmək mümkündür. Hərçənd ki, o, Şuşanın ictimai həyatında həmişə qabaqcıl, o dövr üçün mütərəqqi mövqelərdə durmuşdur.



## Həyatı

*Şuşanın Mamay məhəlləsində Nəvvabın evi*

İndi Mir Möhsün Nəvvabı ilk öncə musiqişünas, Azərbaycan dilində yazılmış "Vüzuhül-ərqam" ("Rəqəmlərin izahı") risaləsinin müəllifi kimi tanıyırlar. Ən yaxşı klassik ənənələr ruhunda qələmə alınmış həmin əsər Şərqdə bu qəbildən yaradılmış son risalələrdən biridir. Azərbaycanda isə, Nəvvab sonuncu kimyagərlərdən, münəccimlərdən və köhnə məktəbə mənsub rəssamlardandır.

O 1833-cü ildə Şuşada Hacı Seyid Əhmədin ailəsində doğulmuş və bütün ömrü boyu doğma şəhərindən kənara çıxmamışdır. İlk təhsilini ruhani məktəbində alan Nəvvab ərəb, fars, türk dillərini mükəmməl mənimsəmiş, sonra isə Abbas Sarıcalı mədrəsəsində astronomiya, kimya, riyaziyyat və digər elmlərin əsaslarına yiyələnmişdir.

Uzun ömrü boyunca Nəvvab Şuşanın mədəni və ictimai həyatında fəal iştirak edib. Şerlər yazmış, özünün açdığı mətbəədə kitablar nəşr etmiş, məktəblərdə dərs demiş, elm və incəsənətin müxtəlif sahələrinə həsr olunmuş iyirmidən artıq kitab yazmış, "Məclisi-fəramuşan" adlı ədəbi, "Məclisi-xanəndə" adlı musiqi məclisləri qurmuşdur. Şairlərdən Abdulla bəy Asi, Fatma xanım Kəminə, Məşədi Eyyub Baqi, Xan Qarabaği, Abdulla Həsən Şahid, ifaçı və müğənnilərdən Hacı Hüsü, Məşədi Cəmil Əmirov, İslam Abdullayev, Seyid Şuşinski və başqaları həmin məclislərin üzvləri idilər. Bu cəmiyyətlər Azərbaycandakı digər eyni məqsədli məclislər Şuşadakı "Məclisi-üns", Şamaxıdakı "Beytüs-Səfa", Bakıdakı "Məcməüş-şüəra" ilə sıx əlaqələr saxlayırdı.

## Yaradıcılığı

**"Kəşfül-həqiqəti-məsnəvi" (birinci səhifəsi)**

Mir Möhsünün əsərləri içərisində "Təzkireyi-Nəvvab" toplusu daha artıq maraq doğurur. Burada XIX orta əsrlərdə Qarabağdan çıxmış 100-dən artıq şairin həyatı və yaradıcılığı haqqında məlumatlar toplanmışdır. Təzkirə 1913-cü ildə Bakıda kitab şəklində nəşr olunmuşdur.

Nəvvab riyaziyyat, kimya və astronomiya ilə maraqlanırdı. 0 öz evində iki teleskop qoyaraq, kiçik bir rəsədxana və kimya laboratoriyası yaratmışdı. 1899-cu ildə dərslik kimi qələmə aldığı "Kifayətül-ətfal" kitabında o, göy cisimlərinin yerləşməsi və günəş tutulmaları haqda cədvəllər tərtib etmişdir. Alim kimya laboratoriyasında şagirdləri ilə sınaqlar keçirir və orta əsrlərdə yaşamış kimyagərlər tərəfindən verilən nüsxələri yoxlayırdı. Nəsihətnamə əsərində cavanlara verdiyi nəsihətlərin sayı 500-dən artıq idi. Tanınmış pedoqoq və alimin etik görüşləri müəyyən mənada onun Kifayətül-ətfal,Nurül-Ənvar" və Pəndnamə kimi kitablarında da öz əksini tapmışdı. Qarabağ və bütün Azərbaycan incəsənətinə ən böyük töhfəsini isə Nəvvab heç şübhəsiz, öz bədii yaradıcılığı ilə vermişdi. Bir çox akvarel rəsmləri, kitab miniatürləri və bir neçə bina və məscidə vurduğu naxışlər bizə yadigar qalmışdır.

Mir Möhsün Nəvvabın məşhur musiqi traktatı Vüzuhül-ərqam ilk dəfə 1913-cü ildə Bakıda nəşr olunmuşdur (Onun musiqiyə həsr etdiyi Kəşfül-həqiqəti-məsnəvi əsəri də məlumdur). Həmin risaləsində Mir Möhsün ayrı-ayrı muğamların, bəzi dəstgahların mənşəyi və onların adlarının kökü haqqında məsələləri araşdırır, muğamların şer mətnləri ilə əlaqəliliyi, ifaçı ilə dinləyicinin qarşılıqlı münasibətləri, akustika baxımından onların optimal yerləşməsi problemlərinə toxunur. Nəvvab ilk dəfə olaraq, dəstgah terminindən istifadə edir, o vaxt Qarabağda məlum olan altı dəstgahın adını çəkir: Rast, Mahur, Şahnaz, Rahavi, yaxud Rahab, Çahargah və Nəva. Nəvvabın sözlərinə əsasən, ifa olunan dəstgahın tərkibi bir çox hallarda ifaçının zövqündən və qabiliyyətindən asılı olur. Alim həmin əsərində Qarabağ musiqiçiləri tərəfindən ifa olunan 82 mahnı nə muğamın adını çəkir. Mir Möhsün bir neçə muğamın mənşəyini və onların adının etimologiyasını araşdırır. Belə ki, Azərbaycan, Nişapur, Zabuli, Bağdadi, Şirvani, Qacarı, Şah Xətai və başqa muğamların adlarını onların yaranmasında rol oynamış şəxslərlə və yer adları ilə əlaqələndirir. Rast muğamını bahar mehi, Rəhavini yağış damlaları, Çahargahı ildırım çaxışı, Dügahı fontan vuran bulaqlarla, Humayunu quşların uçuşu, Nəvanı bədbəxt sevgililərin ah-naləsi, Mahuru suların şırıltısı, Şahnazı bülbüllərin cəh-cəhi, Üşşaqı quşların havada süzməsi,Üzzalı meteoritlərin hərəkəti ilə əlaqələndirir.

Muğamların emosional təsiri haqqında Nəvvab yazır ki, Üşşaq, Busəlik və Nəva şücaət və hünər göstərməyə ruhlandırır, Bozarq, Rahavi, Zəngulə, Zirəfkəndi, Hüseyni kədərli duyğular oyadır. Nəvvab musiqinin müalicəvi əhəmiyyəti barədə də bir sıra maraqlı fikirlər söyləyir. Əsər bu sözlərlə bitir: "Bu risalə Vətən elminin qüdrətini artırmaq məqsədilə yazılmışdır."

Ömrünün bir neçə onilliyini Nəvvab yaradıcılığının tədqiqinə həsr etmiş musiqişünas Zemfira Səfərova yazır: "Vizuhül-ərqam keçən əsrdə yalnız Azərbaycanda deyil, bütün Şərq ölkələrində muğam ifaçılığının və musiqi incəsənətinin vacib məsələlərindən bəhs edən qiymətli bir musiqi əsəridir."

Nəvvab 1918-ci ildə Şuşa şəhərində dünyasını dəyişəndə artıq Azərbaycanda və onun hüdudlarından qıraqlarda yaxşı tanınırdı.

**wikipedia.org**

***Hörmətli oxucular, öz dövründə baş verən hadisələrin şahidi olan 1905-1906-cı illərdəki erməni - müsəlman qırğınını qələmə alaraq, nəşr etdirdiyi "1905-06-cı illərdə Erməni-Müsəlman davası" adlı kitabını hissə-hissə qəzetimizin saylarında sizə çatdıracağıq!***

İzzətli və mehriban qardaşlarım, hüzurunuza böyük ehtiramla, Nəvvab Mir Möhsün mərhum Hacı Seyid Əhməd Ağamirzadə Qarabaği oğlu ərzi-əhval edir ki, bu vaxtlar, yəni hicri 1323-cü (miladi 1905) ildə Qafqaz vilayətində və bir para xarici ölkələrdə ermənilərlə müsəlmanlar arasında baş vermiş iğtişaşların və qırğınların bir parasını müxtəsər şəkildə yadigar qalmaq üçün Azərbaycan türkisində qələmə aldım.

Əvvəla, bunu bilmək lazımdı ki, Qafqaz vilayətləri müsəlman padşahlarına, ələxsus, İran şahlarına tabe olub. Elə ki, Qafqaz vilayətlərində, o cümlədən, Azərbaycanda ayrı-ayrı xanlıqlar yaranaraq İran tabeliyindən çıxdılar, bu zaman, yəni hicri 1161-ci (miladi 1748) ildə Pənah xan Bayatda bir qala tikdirdi. Bir az müddətdən sonra həmin qalanı tərk edib hicri 1165-ci (miladi 1751) ildə Tərnəkütdə başqa bir qala bina etdi. Beş il istər-istəməz o qalada qaldı. Əyanlar Pənah xanın bu qalaya meylsiz olduğunu hiss edib ona müraciət etdilər ki, əgər məsləhət bilsəniz, gözəl havası olan səfalı, hündür bir yer var ki, orda yeni bir qala tikdirərdin. Ora müdafiə baxımdan da münasib bir mövqedə yerləşir. Pənah xan öz əyanları ilə gəlib həmən yerə baxarkən gördü ki, ora hündür bir yerdir, dörd ətrafı uca qayalar və dağlarla əhatə olunmuşdur. Uçan quşlardan başqa insan və heyvan həmin qayalarla qalxıb enməyə qadir deyil. Bura yalnız iki tərəfdən – şərqdən və qərbdən gediş-gəliş yolları var. Pənah xan həmin yeri bəyənib bildirdi ki, çox yaxşı möhkəm şəhər yeridi. Lakin nə fayda ki, kifayət qədər axar suyu və çayları yoxdu. Sonra xanın əmri ilə kənkanlar gəlib orada bir neçə yerdə quyular qazdılar. Quyulardan yaxşı su çıxdı. Lakin şor idi.

Hicri 1170-ci (miladi 1756) ildə Pənah xanın əmrinə əsasən həmin yerdə bir qala tikildi və həmin qala Pənahabad qalası adlandırıldı. İndi həmin qalaya Şuşa qalası deyirlər. Get-gedə həmin qala abadlaşdıraraq şəhərə çevrildi. Burda ərbxana tikdirilərək pul kəsilməyə başladı. Burda sikkələr kəsilirdi. Qarabağda Pənah xanın hakimiyyəti İran padşahının onu İrana aparana qədər davam etmişdi (Xan İrana aparılanda orada vəfat etmişdi (Ancaq deyilənə görə, Pənah xan İranda vəfat etməsinə baxmayaraq, vəsiyyətinə görə onu gətirib Ağdamda İmarətdə dəfn etmişlər).

Pənah xandan sonra İbrahim Xəlil xan öz atasının yerində oturub hökmdarlıq etmişdir. İbrahim Xəlil xan Qalanın (xalq arasında Pənahabad şəhəri Qala adı ilə məşhur idi) abadlığına böyük əhəmiyyət verərək onun ətrafında çoxlu kəndlər salmışdı. Bununla da get-gedə onun xanlığı qüvvətlənmiş və özü böyük şöhrət tapmışdı.

İran padşahı Ağa Məhəmməd şah Qacar saysız qoşunla Qarabağa hücum etdikdən sonra Qalaya daxil olarkən İbrahim Xəlil xan Dağıstan tərəfə qaçmışdır. Ağa Məhəmməd şah Qacar isə xanın oğlu Məhəmməd Həsən ağanın evini özünə iqamətgah seçmişdi. Ağa Məhəmməd şah Qacar bir gün Səfərəli adlı bir nökərini cinayət etdiyinə görə hədələyib, buyurur ki, sabah müqəssirlərin hamısının başını kəsdirib bir minarə tikdirəcək və Səfərəlinin başını lap yuxarıda qoyduracaq. Həmin Səfərəli şahın qapısında keşikçi durardı. O gecə bir yoldaşı ilə birlikdə gecədən xeyli keçdikdən sonra şahın yatdığı evə daxil olub, xəncər ilə şahın qarnını yırtıb öldürürlər.

Bu hadisə hicri 1211-ci (miladi 1796) ildə baş vermişdi. Şah öldürüldükdən sonra qoşun dağılıb İrana qayıtdı və İbrahim Xəlil xan gəlib öz yerində qərar tutdu. Ağa Məhəmməd şahın vəliəhdi Fətəli şah hadisədən xəbərdar olduqdan sonra oğlu Abbas Mirzənin sərkərdəliyi ilə yenidən Qarabağa qoşun yeritdi. Bu əhvalatdan xəbər tutan İbrahim xan qorxuya düşdü. Dərhal öz oğlu Məhəmməd Həsən ağanı Gəncəyə rus sərdarının yanına göndərib ondan kömək istədi.

Rus sərdarı on min qoşun götürüb Məhəmməd Həsən ağa ilə birlikdə Qarabağa gəldi. İbrahim Xəlil xan əmirlilərdən və cəbrayıllılardan bir qədər atlı götürüb rus sərdarının qabağına gəldi. Görüşdən sonra onlar Araz çayı tərəfə İran qoşununun qarşısına hərəkət etdilər. Aslandüz deyilən yerdə İran qoşunu ilə qarşı-qarşıya gəlib, bir az döyüşəndən sonra azsaylı İran qoşunu geri çəkilib İrana qayıtdı. Vuruşdan sonra İbrahimxəlil xan öz atlıları və rus qoşunu ilə birlikdə geri dönüb qalaya tərəf üz qoydular. Gəncə-Qarabağ yol ayrıcına çatarkən rus sərdarı irəli çıxıb xanla əl tutduqdan sonra dedi ki, cənabınızın Qalasını çox tərifləyirlər.

*Araşdırdı: Tahir Süleyman*

**(Ardı gələn sayımızda)**

412:1.QXD 27.02.2018 21:49 Page 12



# 1947-ci il. Mustafa Bərzani və onun kürd peşmərgələri Azərbaycanda

1946-cı ilin dekabrında İranda Mehabad respublikası süqut edir. İranın baş nazir Qəvame-Səltənə ilə Mehabadın lideri Qazı Məhəmməd arasında avqustda Tehranda bağlanmış razılaşma pozulur və şah qoşunları həm Təbrizi, həm də Mehabadı ələ keçirir. 1947-ci ilin 30 martında Qazı Məhəmməd, qardaşı Sədr Qazı və Mehabad respublikasının müdafiə naziri Seyf Qazı dar ağacından asılır.

Şah qoşunlarına qarşı müqaviməti yalnız respublikanın Baş komandanı, general Mustafa Bərzani davam etdirir. 44 yaşlı Bərzani sonunda qüvvələr nisbətinin bərabər olmadığını və məğlubiyyətin qaçılmazlığını anlayaraq İranı tərk etmək və SSRİ-yə keçmək qərarına gəlir. 1947-ci ilin iyununda o, silahlı dəstəsi ilə Naxçıvanla sərhədi keçərək Azərbaycan ərazisinə, Culfaya daxil olur. Beləliklə, Bərzaninin və tərəfdarlarının 12 il davam edən SSRİ dövrü başlayır. Həmin dövrün bir neçə ili Azərbaycan SSR-də keçir.

* * *

SSRİ ərazisində dəfələrlə Bərzani ilə ünsiyyətdə olmuş əfsanəvi Sovet əks-kəşfiyyatçısı Pavel Sudoplatov (1907-1996) özünün 1990-cı illərdə işıq üzü görən "Xüsusi əməliyyatlar" adlı memuarlarında xatırlayır: "Bərzani SSRİ-yə gəlməzdən bir müddət əvvəl İrandakı kürd üsyançıların rəhbərləri şahın qurduğu tələyə düşürlər: onlar danışıqlar üçün Tehrana çağırılır, burada həbs edilir və edam olunurlar. Yalnız Bərzani həmin qismətdən qaça



bilir. Şah onu danışıqlara dəvət edəndə, Bərzani cavab verir ki, yalnız bir halda Tehrana gələ bilər - əgər şah özünün ailəsini girov kimi Bərzaninin mənzl-qərargahına göndərərsə. Şahla ilkin danışıqlar davam edən müddətdə isə o, qüvvələrinin böyük hissəsini İranın şimal rayonlarına, SSRİ ilə sərhədin yaxınlığına yerləşdirir".

1947-ci ilin iyununda SSRİ Daxili işlər nazirinin müavini Vasili Ryasnoy Stalinə məruzə edir: "Bu ilin 15 iyununda Naxçıvan 41-ci sərhəd dəstəsinin hərbi müşahidəsinə görə, Sovet-İran sərhədindin cənub-qərbində İran təyyarələri peyda olaraq Ağgül gölündən (İran) cənuba doğru uçuşlar keçirib. Onlar bizim ərazilərimizə 200 metrə qədər məsafədə daxil olublar. Elə həmin dövrdə bir neçə bomba partlayışı da qeydə alınıb".

Qonşuların qeyri-adi hərbi fəallığının səbəbləri Moskva üçün sirr deyildi. Vasili Ryasnoyun həmin məruzəsində deyilirdi: "Əldə olunmuş bilgilərə gör, İran Kürdüstanında, Uşnu rayonunda (Urmiyə gölündən cənub-qərbə) 1947-ci ilin martından başlayaraq İran hökumət qoşunları ilə İraqdakı bərzan tayfasının tərksilah olmaqdan imtina etmiş üzvləri arasında hərbi əməliyyatlar başlayıb. Kürd bərzan tayfası 1945-ci ildə İraqdan köçərək İranda məskunlaşıb".

Beləliklə, əvvəl İraqda, sonra isə İranda məğlubiyyətə düçar olmuş molla Mustafa Bərzani kor dalana sıxışdırıldığını yaxşı anlayaraq yeganə qurtuluş yolunu Azərbaycan ərazisinə keçməkdə görürdü. Onun hərbi birləşmələri Maku yaxınlığında şah qoşunlarını məğlub edərək SSRİ sərhədinə doğru hərəkət edirdilər.

